**PAŞA YAQUB**

# PADAR KƏNDİNİN ENSİKLOPEDİYASI

**Bakı-2012**

**Redaktoru: Nazim Tapdıqoğlu (Vəlişov)**
*tədqiqatçı-tarixçi, "Qızıl Qələm" mükafatı laureatı*

Paşa Yaqub «**Padar kəndinin ensiklopediyası**»,
«Zərdabi LTD» MMC, Bakı, 2012, 112 səh

Oğuz rayonunun Padar kəndinin tarıxı, etnoqrafiyası, arxeologiyası, coğrafiyası ilə bağlı olan bu ensklopedik məlumat kitabında kənddə olan coğrafi adların mənşəyi, mənsubiyyəti haqqında qısa izahlı şərhlər, eləcədə Padarın müqəddəs yerlərinin, tanınmış ziyalılarının, görkəmli şəxsiyyətlərinin, Qarabağ müharibəsində şəhid olanların, Böyük Vətən Müharibəsi və Əfqanıstan müharibəsi veteranlarının adları da verilmişdir.

Padar kəndi haqqında ilk dəfədir ki, bu cür sistemli şəkildə tədqiqat aparılaraq, çap olunur. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab gələcəkdə tədqiqatçılar üçün zəngin məlumat mənbəyi olacaqdır.

$Y \frac{470512050}{0103-2012}$

© Paşa Yaqub, 2012

# REDAKTORDAN

Vətənpərvər ziyalı olan Paşa Yaqub bu kitabında Oğuz rayonunun ***Padar kəndi*** haqqında məlumat xarakterli qısa bilgilərlə bərabər, kəndin tanınmış şəxsiyyətləri, Sovet dönəminin repressiya qurbanları, Qarabağ müharibəsində şəhid olmuş övladları, habelə kəndin Böyük Vətən və Əfqanıstan müharibələrinin iştirakçıları haqqında oxucusuna məlumat verir. Kəndin tarixi, arxeologiyası, coğrafiyası, etnoqrafiyası, toponimiyası ilə bağlı olan bu kitabda qısa ensiklopedik bilgilər, izahlı şərhlər özünə yer almışdır.

***"Ömür beşikdən başlanır"***- deyənlər haqlıdırlar. ***"Geniş yolların kökü xırda cığırlardır"*** – deyə düşünənlər yanılmırlar. Əslində bizim hər birimiz Böyük Vətən dünyasına kiçik evlərin astanasından düşürük. Yollar bizi *Böyük Vətən dünyasına* apardıqca *balaca Vətən dünyası* yadımızdan çıxmır. Bəli, bizə doğma olan kiçik ocaqları yaxşı öyrənib-bilməsək, Böyük Vətənimizi öyrənib-bilə bilmərik. Vətəninin, xalqının, yurdunun tarixi keçmişini bilmək hər bir vətən övladı üçün böyük borc və şərəfdir.

Alazan-Əyriçay vadisində, Padar kənd inzibati ərazi vahidində yerləşən ***Padar kəndi*** Oğuz rayonunun qədim tarixi keçmişə malik olan kəndlərindən biridir. Adından da göründüyü kimi burada ilk əvvəllər Hülakülər *(Elxanilər)* dövründə Azərbaycana gəlmiş oğuz-səlcuq əsilli türk tayfaları yaşamışlar. Hələ İran səltənəti moğolların əlində olan zaman Hülakilər

hakimiyyətlərini qoruyub saxlamaq üçün Türkistandan **200 000** ailəni *(o cümlədən, Ağ hun ailəsinə mənsub olan* ***qayı*** *türklərini)* Azərbaycana və İrana köçürmüşlər. Həmin *qayı* türklərinin tərkibində *Qacar, Əfşar, Çobanı* və başqa qəbilələrlə birlikdə ***padar*** ailələri də olmuşdur.

Əvvəllər əsasən Azərbaycanın cənubunda yaşamış ***padarlar*** (**padar** sözü türkcə **pad** – *"cəsur", döyüşkən"*; **ər** – *"igid", "kişi"* deməkdir) Səfəvilər dönəmində *(XV-XVI əsrlərdə)* dağlı tayfalarının basqınlarından qorunmaq məqsədilə Azərbaycanın şimal zonasına köçürülmüşlər. Şahsevən tayfa ittifaqında mühüm rol oynayan *padarlar* sonralar ictimai-iqtisadi, tarixi hadisələrlə əlaqədar olaraq müxtəlif yerlərə səpələnmişlər. XIX əsrdə Cavad qəzasında yaşayan padarların ***ilxıçı, qaraçörüklü, pölüklü, axtaçı, küyülçü*** və digər tirələrdən, ***218*** ailədən ibarət olması haqqında müxtəlif məlumatlar, mənbələr vardır. Hazırda respublikamızda ***7*** **Padar kəndi** mövcuddur.

Müəllifin ***"Padar kəndinin ensiklopediyası"*** adlandırdığı bu kitabda Oğuz rayonunun Padar kəndinin nəsilləri ***(bəkiruşağı, daqqauşağı, isgəndəruşağı, danqarlar, garazlılar, alqocalar*** və s.), məhəllələri, bulaqları ***(Çələbi, Nehrə, Sona, Məmməddursun, Çır-Çır, Ağbulaq)***, qəbiristanlığı ***(Qəriblər)***, çayları ***(Qumluq, Sarısu)***, körpüləri ***(Kirəc, Fatma, Atası)*** haqqında da maraqlı informasiyalar öz əksini tapmışdır.

Məncə kitabın müəllifi Paşa Yaqubun əməyi onun *Padar* və *padarlılara* olan sönməz məhəbbətinin

nəticəsi kimi yüksək qiymətləndirilməlidir. Müəllif Padarın tarixindən, onun təbii sərvətlərindən, görkəmli şəxsiyyətlərindən, torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərindən həvəslə söhbət açır. Müəllifin müasiri olduğu bəzi padarlı ziyalıları, müəllimləri, həkimləri, şairləri, əməkçiləri, döyüşçüləri tanıması kitabın daha da oxunaqlı olmasına dəlalət edir.

Özünəməxsus bir formada – xatirə-memuar janrına yaxın olan səpkidə kitab yazmağa cəhd göstərmiş Paşa Yaqub gördüyü işə böyük məsuliyyətlə yanaşmış, nəyisə, kimisə diqqətdən qaçırmamağa çalışmış və beləliklə orijinal faktlar toplusu olan bu kitabı araya-ərsəyə gətirməklə qarşısına qoyduğu ali məqsədin öhdəsindən bacarıqla, uğurla gəlmişdir. Hesab edirəm ki, məhz bu xidmətlərinə görə o, hər cür təşəkkürə layiqdir. Mən Paşa Yaquba bundan sonra da həyatda və yaradıcılığında böyük uğurlar, nailiyyətlər arzulayıram.

**Nazim Tapdıqoğlu** ***(Vəlişov)***
***Tədqiqatçı-tarixçi, "Qızıl Qələm"***
***mükafatı laureatı***


Yemişənli
Kərimli
PADAR
Dəymədərə
Xaçmaz
Yaqublu

# PADAR KƏNDİ

*Köynəyim dardı mənim,*
*İşim ahu-zardı mənim,*
*Abudllah yalan deməz:*
*Kəbəm Padardı mənim.*
**Abdulla Padarlı**

Azərbaycanın qədim və zəngin tarixə malik kəndlərindən biri də Padar kəndidir. Oğuz rayonunda yerləşən bu kənd, Oğuz-Bakı şosse yolunun 18-ci km-də olmaqla, 2330 hektar əraziyə, 2300 nəfər (01 yanvar 2011-ci il tarixə olan məlumata görə) əhaliyə malikdir.

Kəndin adından göründüyü kimi, burada məşhur Padar tayfası yaşamışdır. Azərbaycanın ensiklopediyasında göstərildiyinə və bir çox tarixçilərin yazdığına görə Padar tayfası Azərbaycana Elxanilərin hakimiyyəti dövründə (XIII-XIV əsrlər) gəlmişlər.

XVI-XVII əsrlərdə isə bu tayfa Azərbaycanın şımal bölgələrinə köçürülmüşlər. Bu köçürülmədə məqsəd Azərbaycanı şimaldan gələn təhlükələrdən qorumaq idi. Çünki Padar tayfası çox cəsur, qorxmaz, döyüşkən tayfa idi. (Padar sözünün türkcədən tərcüməsi: **Pad**-cəsur, igid, döyüşçü; **ər**-igid kişi deməkdir.)

Beləliklə, bu tayfa şimal bölgəsində yerləşdi ki, bugün də onların adını daşıyan kəndlər Oğuz, Şamaxı, Quba, Qusar, Xaçmaz, Dəvəçi, Ağsu, Kürdəmir, Hacıqabul, Ağdam rayonlarında mövcuddur.

Bu kitabda biz Oğuz rayonunda yerləşən Padar kəndidndən danışacağıq.

Dağətəyi zonada yerləşən bu kəndin çox məhsuldar və bərəkətli torpağı var. Burada taxılçılıq, meyvəçilik, üzümçülük, tütünçülük (sovet dönəmində), heyvandarlıq xüsüsilə inkişaf etmişdir.Burada tərəvəz-bostan bitkiləri, dənli bitkilər, texniki bitkilər və s. əkilir.



Kənddə Bəkir uşagı, Daqqa uşagı, Alqocalar, Danqarlar, Garazlılar, İsgəndər uşagı və s.nəsil və tirələr məskunlaşmışlar.

Kənddə orta məktəb, uşaq baxçası, mədəniyyət evi, kitabxana, xəstəxana, dəyirman, rabitə şöbəsi, məscid və digər ictimai iaşə obyektləri fəaliyyət göstərir.

Bu kitabda qədim tarixə malik Padar kəndinin məhəllələrindən, nəsillərindən, toponimlərindən,tarixi şəxsiyyətlərindən bəhs edəcəyik. Kəndin qocaman sakinləri, taninmış ziyalıları ilə söhbətlərimdə əldə etdiyim müxtəlif səpkili informasiyalar, həmçinin arxivlərdən götürdüyüm məlumatlar əsasinda belə bir ensiklopedik məlumat kitabı yaranmışdır.

Padar kəndi ölkəmizə onlarla tanınmış ziyalı- alim, mühəndis, həkim, siyasətci, neftçi, jurnalist, mədəniyyət işçisi, hərbiçi, idmançı və s.bəxş etmişdir. Bu torpaq indiyədək elim, mədəniyyət və incəsənətin müxtəlif sahələrində onlarla tanınmış mü-

təxəssislər yetirmişdir. Bu kitabda Padarın bəzi tanınmış şəxsiyyətləri, ziyalıları haqqında qısa məlumatlar da vardır.



Əziz oxucu! Bildirmək istəyirəm ki, bu kitabı xoş məramla, böyük həvəslə qələmə aldım. Ola bilsin ki, kitabda müəyyən fikirlər, faktlar səthi tədqiq olunmuş, bəzi tanınmış şəxsiyyətlərin adları kənarda qalmışdır. Yəqin ki, bu və ya digər toponimin, faktın izahında müəyyən mübahisəli, nöqsanlı fikirlər də var. Odur ki, bu mövzuda sizin dəyərli fikirlərinizi və mülahizələrinizi dinləmək istərdim. Əvvəlcədən sizə öz təşəkkürümü bildirirəm.

Hörmətlə: müəllif- **Paşa Yaqub**

# PADAR KƏNDİNİN TOPONİMLƏRİ

**Toponomika** - coğrafi adlari tədqiq edən bir elm sahəsidir. **Topos** yunan sözü olub, "rel-yef, yer, ərazi, sahə", **onoma** isə "ad" mənasını bildirir.

Coğrafi adların hər biri yerin yaddaşıdır. Müəyyən zaman müddətində verilmiş bu adlar əsrlər boyu lazımi səviyyədə izah və tədqiq olunmalıdır ki, bu da toponimika elmi ilə mümkundür. Toponimləri dunən ilə bu gün, bu gün ilə sabah arasinda salınmış tarixi körpüyə bənzədirlər.Bunun üçün də onu qorumaq, öyrənmək və gələcək nəsillərə çatdırmaq lazımdır.

Padar kəndi qədim yaşayış məskəni olduğundan, burada bir çox toponimlər mövcuddur ki, onların ya-ranması və mənası barədə məlumat verməyi vacib bildim.

## HACI MƏMMƏDƏLİ ARXI

**Hacı Məmmədəli arxı** öz mənbəyini Yemişənli kəndindən götürməklə, Padarın əkin sahələrinin çox hissəsini su ilə təmin edir. XVIII-XIX əsrlərdə yaşamış və çox böyük totpaq sahələrinə sahib olan **Hacı Məmmədəli** adlı mülkiyyətçi tərəfindən, öz torpaqlarını sulamaq üçün çəkildiyindən, arxa sonralar onun adını vermişlər.

## SEYİD ƏMBƏRCƏSİ

XIX əsrdə Padarda yaşayan **Seyid** adlı zəngin bir şəxs kəndin aşağı hissəsində olan böyük torpaq sahə-

lərini suvarmaq üçün, Hacı Məmmədəliyə bir neçə kiloqram qızıl verərək, onun arxından su götürmək üçün icazə almışdır. Lakin onun torpaq sahəsi ilə kəndin arasında böyük çökəklik olduğundan, o, bu çökəklikdən öz sahəsinə qədər bənd ***(əmbərcə)*** vurdurmuş, daha sonra bəndin üstü ilə arx çəkdirmişdir. Həmin dövrdə texnika olmadığından, bütün bu işlər əl ilə və çox baha  qiymətə görülmüşdür. Bu gün həmin yer **Seyid əmbərcəsi** adlanır.

## İSLAM YERİ

**İslam yeri** Padar kəndinin yuxarı hissəsində-şimal tərəfində yerləşən, təxminən 30 hektara yaxın torpaq sahəsidir. XX əsrdə bura İslam Kərimova məxsus meşə sahəsi olduğundan, bu günə qədər *"İslam yeri"* adlanır. Məlumat üçün bildirim ki, İ.Kərimov 1905-65-ci illərdə Padarda yaşamaqla, bəy nəslindən olduğundan, bu torpaqlar da ona atasından miras qalmışdı. Kolxoz yarananda hamı kimi onun da torpağını alıb kolxoza verdilər. Sovet dönəmində buradakı meşəni qırıb, əkin sahəsi ediblər. **İslam** uzun müddət kolxoz sədri işləyib, yeddi dəfə evlənməklə doqquz oğlu, bir qızı olub.

## KAZIM ÖLƏN

**Kazım ölən** Padarın qərb hissəsində yerləşən təxminən 35 hektar ərazidir. Sovetlərdən qabaq bu sahə **Kazım** adlı bir şəxsə məxsus olub və o, ömrünü burada başa vurub. Odur ki, sahənin adı *Kazım ölən* qalıb.

## BAZAR YERİ

Vaxtilə bölgənin ən böyük bazarı Padarda olmuşdur. Bura nəinki Azərbaycandan, hətta qonşu Gürgüstandan, Ermənistandan, Dağıstandan da insanlar gələrmiş. Həftədə bir dəfə bura axışan insanların bir qismini ticarət mallarını burada satmaq üçün gələn tacirlər, bir qismini isə öz ehtiyaclarını ödəmək üçün alış-veriş etməyə gələn sadə insanlar təşkil edərdilər.

Bazarın ətrafinda isə dəmirçixanalar, qalayçılar, nalbəndlər, araba təkəri bağlayanlar və digər sənətkarlar fəaliyyət göstərər, həmçinin kababxanalar, çayxanalar gəlib-gedənlərə xidmət edərdilər. Onu da qeyd edim ki, çox qədim tarixə malik olan Padar bazarı 1959-cu ilə qədər fəaliyyət göstərmiş, bu tarixdə sovet hakimiyyətinin yerli məmurları tərəfindən bağlanmışdır. Həmin bazarın yeri kəndin mərkəzində yerləşdiyindən, camaatın əsas yığınaq yeridir. Burada çoxlu mağazalar, çayxanalar, yeməkxanalar, müxtəlif xidmət köşkləri, həmçinin inzibati binalar yerləşir. Bu əraziyə **bazar yeri** deyilir.

## DAŞ ÜZ

**Daş üz** sahəsi təxminən 10 min hektara qədər ərazi olub, bir hissəsi Şəki, bir hissəsi Oğuz, bir hissəsi isə Qəbələ rayonlarının ərazisini təşkil edir. Sahənin təxminən 400 hektarı da Padar kəndinin ərazisinə düşür. Kolxoz vaxtı bu sahədə üzüm əkilib. İndi camaatın əkin sahələridir.

## AĞ TALA

Kəndin qərb hissəsində yerləşən, 85 hektardan çox sahənin torpağı ağ gilli olduğu üçün, **Ağ tala** adlanır. Kolxoz dövründə burada qoyun yataqları olub, indi Padar sakinlərinin əkin sahələridir.

## QARALI TALASI

**Qaralı talası** Padarla Kərimli kəndlərinin sərhəddində yerləşir. Təxminən 140 hektar ərazisi olan bu sahədə uzun müddət qarğıdalı əkildiyindən, Qarğıdalı sahəsi adlanmışdır. Sonralar bu söz təhrif olunaraq, **Qaralı sahəsi** formasına düşmüdür.

## SİLİKOV SAHƏSİ

**Silikov sahəsi** Padar kəndinin **Daş üz** adlanan sahəsinin yaxınlığında yerləşməklə, təxminən 135 hektara yaxın ərazidir. Sovet dönəmində burada qeyri millətlər yaşadığından və onların içərisində **Silikov** soyadlı bir nəfər olduğundan, sahə **Silikov** adlanıb.

## ATA BAĞI

**Ata bağı** kəndin qərb hissəsində təxminən 20 hektar ərazidir. Vaxtilə tütün sahəsi olub. İndi həyatyanı sahələr və fərdi evlər yerləşir. Bu yerə el arasında **Örənə** də deyirlər. **Örən** termini "*dincə qoyulmuş əkin yeri*", "*xam torpaq*" mənasındadır.

## MƏMMƏDDURSUN SAZI

**Məmmədrdursun sazı** Padarın girişində, yolun qırağında təqribən 6 hektar torpaq sahəsidir. Vaxtikən bu sahə bataqlıq, qamışlıq olduğundan, belə yerlərə kənd arasında **Saz** deyirlər. **Məmmədrdursun** adlı bir şəxsin evinin yanında yerləşdiyindən, **Məmmədrdursun sazı** adlanıb.

## İSGƏNDƏR ÇÖKƏKLƏRİ

Padar kəndinin cənubunda təxminən 10 hektar ərazi **İsgəndər çökəkləri** adlanır. Bu sahə **İsgəndər** adlı kənd sakininin evinin yanında yerləşdiyindən və çökək olduğundan belə adlanmışdır.

## QARAQORALIQ

**Qaraqoralıq** Padarın *Yuxarıbaş* məhəlləsində yer adıdır. Bu sahə üstündə qara qoralar olan yabanı bitki ilə örtülü olduğundan, **Qaraqoralıq** adlanıb. Sovetdən qabaq bu torpaqlar İbrahim bəyin atası Əsəd bəyə məxsus olub. İndi həyətyanı sahələrdir.

## XƏLİFƏ YERİ

**Xəlifə yeri** Padar kəndinin cənubunda, söyüdlü kəndinə gedən yolun şərqində təxminən 100 hektar sahədir. Keçmişdə hansısa xəlifəyə məxsus olduğundan, bura *Xəlifə yeri* adlanıb.

## QUMLUQ ÇAYI

**Qumluq çayı** Padarın aşağı hissəsindən keçməklə, kəndin bir hissəsini su ilə təmin edir. Öz mənbəyini təbii bulaqlardan götürdüyündən, dadlı suya malikdir. Mənsəbdə Əlican çayına tökülür.

## PİR QARAĞAC

**Pir qarağac** Padarın *Toxtəmir* məhəlləsində yerləşir. İnsanlar müxtəlif niyyətlərlə buranı ziyarət edib, ehsan verirlər. Pirdə bir neçə **qarağac** bitdiyindən, adı da buradan götürülüb. **Pir** sözü "*ata-baba*", "*qoca pirani*" mənasındadır. Azərbaycanda əsasən övliyaların, şeyxlərin qəbrləri **pir** hesab edilir. Piri ziyarət etmək orada dəfn olunanın ruhuna ehtiram göstərmək, onun xeyir-duasına nail olmaq mənasını daşıyır. Bəzi bölgələrdə belə yerlərə **ocaq** deyilir.

**Pir** sözü ilə bağlı Azərbaycanda **39** kənd adı, eləcə də yüzlərlə toponim vardır.

## QƏRİBLƏR QƏBİRİSTANLIĞI

**Qəriblər qəbiristanlığı** kəndin *Toxtəmir* məhəlləsində yerləşir. 1918-ci ildə erməni-müsəlman müharibəsində şəhid olan türk əsgərləri burada dəfn olunduğundan, **Qəriblər qəbiristanlığı** adlanıb. Sonrakı dövrlərdə alış-veriş və digər məqsədlərlə kəndə gəlib, burada dünyasını dəyişən qərib adamlar da bu qəbiristanlıqda dəfn olunublar.

## ÇƏLƏBİ BULAĞI

**Çələbi bulağı** kəndin *orta məhəlləsində* yerləşməklə, bu məhəlləni içməli su ilə təmin edir. **Çələbi** adlı bir şəxs tikdirdiyindən, bulaq onun adına adlandırılıb. Sonralar Səfər adlı kənd sakini bulağa qulluq edib.

## NEHRƏ BULAĞI

**Nehrə bulağı** kəndin *Taxtəmir* məhəlləsində yerləşir. Suyu buz kimi soyuq olduğundan, hələ ta qədimdən bu günədək evdar qadınlar səhər tezdən **nehrə** çalxayanda, bu sudan gətirib nehrəyə tökürlər ki, yağ ayrandan asanlıqla ayrılsın. Ona görə də adı *Nehrə bulağı* qalıb. Bulağı XIX əsrdə yaşamış Zakir adlı kənd sakini tikdirdiyindən, ona elarasında **Zakir bulağı** da deyirlər.

## SONA BULAĞI

**Sona bulağı** kəndin **Kosalı** məhləsində olub (*indi axmır*). **Sona** adlı qzın xatirəsinə atası tərəfindən tikdirildiyindən, **Sona bulağı** adlanıb.

## MƏMMƏDDURSUN BULAĞI

*Məmməddursun sazı*ndan qaynayan bulaq el arasında **Məmməddursun bulağı** adlanır. Suyu təmiz və içməlidir.

# QALA YERİ

Padar kəndi qədim yaşayış məskəni olduğundan, burada qədim insanlara məxsus tikililərin qalıqları mövcuddur. Belə bir qalanın qalıqları bu gün də qaldığından, həmin yerə **Qala yeri** deyilir. Burada orta əsrlərdə xanlıqlar dövründə qala olmuşdur. Yeri gəlmişkən qeyd edim ki, 1501-ci ildə Şah İsmayıl Xətainin yürüşü nəticəsində Padar mahalı səfəvilər dövlətinin ərazisinə daxil edildi.

1736-cı ildə səfəvilər dövləti süqut etdikdən sonra, 1743-ci ildə Hacı Çələbi xan özünü Şəki xanı elan etdi və müstəqil xanlıq yaratdı. Xanlığın tərkibinə səkkiz mahal - Şəki, Xaçmaz, Qəbələ, Ərəş, Padar, Ağdaş, Alpout, Göynük, daxil idi.

1805-ci ilin 21 mayında Rusiya ilə kürəkçay müqaviləsi bağlandı və bununla da Şəki xanlığı Rusiyanın tabeliyinə keçdi 1819-cu ildə Rusiya tərəfindən Şəki xanlığı ləğv edildi və buradakı əyalətlər (o cümlədən Padar mahalı) komendatlar tərəfindən idarə olundu.

1918-ci ilin 28 mayında Azərbaycan xalq cümuriyyəti yarandı və bütün şimali Azərbaycan, o cümlədən Padar mahalı müstəqil Azərbaycan dövlətinin tərkibinə daxil oldu.

1920-ci ildə isə bolşeviklərin işğalı nəticəsində bu dövlət yenidən Rusiyanın əsarətinə düşdü.

XX əsrin sonlarında Azərbaycanda başlanan xalq hərakatı 1991-ci ildə müstəqil Azərbaycan dövlətinin yaranması ilə nəticələndi.

Qala yerində bir çox tarixi şəxsiyyətlərin, o cümlədən Abdulla Padarlının, Hacı Abd Çələbi bəyin nəvəsi Şeyx Əhmədin (ölüm tarixi 1830-cu il) və s. Qəbirləri vardır.

## AĞ BULAQ

Kəndin **Daşüz** adlanan sahəsindən axan bulağın suyu şəffaf olduğundan, **Ağ bulaq** adlanır. Bulaq çox qədim tarixə malikdir. Belə ki, burada yaşayan qədim insanlar bu bulağı dağdan saxsı turba ilə çəkib gətiriblər ki, indi bu cür turbalar istehsal olunmur.

## ÇIR-ÇIR BULAĞI

**Çır-çır** bulağı Garaz adlanan yerdən axır. Əvvəllər bu yerdə Garaz kəndi olsada, kəndi sel apardığından, əhalisi əsasən Padarda məskunlaşıb. **Çır-çır** bulağından dəmir turba ilə çəkilən su xətti Padar əhalisinin içməli suya olan tələbatını ödəməkdədir.

## KİRƏC KÖRPÜ

**Kirəc körpü** kəndin orta məhəlləsində, Qərib yüzbaşının evinin yaxınlığındakı kanalın üzərində mövcud olub. Sonralar sökülüb.

## ATASI KÖRPÜSÜ

**Atası körpüsü** Padar kəndi ilə Söyüdlü kəndini birləşdirən yolun üstündə, Sarısu çayının üzərində

yerləşir. Tağlı körpü olmaqla, sovet dövründən qabaq tikilib.

## FATMA KÖRPÜSÜ

**Fatma körpüsü** Qumluq çayının üzərində yerləşir. XIX əsrdə yaşamış **Fatma** adlı bir qadın tərəfindən tikildiyindən, sonralar onun adı ilə adlandırılıb. Fatmanın Maral adlı qızı olduğundan, həmin körpüyə **Maral körpüsü** də deyilir.

## SARISU ÇAYI

**Sarısu** çayı öz mənbəyini Padardakı bulaqlardan, arxlardan götürməklə, mənsəbdə Əlican çayına tökülür. Çay **Daşüz** sahəsindən keçərkən, buranın torpağı **sarı** olduğundan, suyun rəngi saralır. Bu səbəbdən çayın adı **Sarısu** adlanır.


PAdAr

# Падар кяндинин мцгяддяс йерляри



## ŞEYX YUSİF ƏFƏNDİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

***"Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!*** *Quran, "Qarışqalar" surəsi, 16-cı ayə.*

Allah-təalanın mömünlərin çoxundan üstün tutaraq elm verdiyi və övliyalıq məqamına yüksəltdiyi sevimli bəndələrindən biri də Oğuz rayonunun Padar kəndində yaşamış, müqəddəs məzarı ziyarətgah olan Şeyx Yusif əfəndidir. Onun atası Şeyx Hüseyn əfəndi Həsən oğlu da dövrünün alimi və övliyası kimi tanınmış, bu gün də şərif məzarı ziyarət olunmaqdadır. O, əslən Dağıstandan (Xasavyurt altından) olmaqla, məşhur övliya Şeyx Şüeyb əfəndinin (1853-1909) nəslindəndir. Şimali Qafqazda Şeyx Şamilin rəhbərlik etdiyi milli azadlıq hərəkatı (mürüdizim) məğlubiyyətə uğradıqdan sonra bu hərəkatın bir çox iştirakçıları kimi, Hüseyn Əfəndinin nəsli də Dağıstandan Azərbaycana köç etmək məcburiyyətində qaldı.

Hüseyn Əfəndinin kəramətlərinə dair əhvalatlar bu gün də xalq arasında maraqla danışılmaqdadır. Belə ki, XIX əsrin sonlarında bir il yay çox quraqlıq keçir. Yağış yağmadığından, camaatın əkini tələf olurmuş. Bir dəstə kənd ağsaqqalı toplaşıb, Şeyx Hüseyn əfəndinin yanına xahişə gəlirlər ki, yağış üçün Allaha dua etsin. Övliya məsləhət görür ki, ümumi şəkildə bir

qurbanlıq alıb, kəndin yaxınlığındakı "Yalov təpə" deyilən yerdə kəsib, kasıb-kusuba paylasınlar, ondan sonra o, həmin təpənin üstündə da edəcək.

Camaatın içində bu təklifə dodaq büzənlər olsa da, ağsaqqallar səhər günorta namazı vaxtı qurbanlıq qoçu götürüb, təpənin üstündə cəmləşirlər. Qurban kəsilib, yetimələrə, kasıblara paylanandan və bir hissəsi də orada ehsan kimi yeyiləndən sonra, övliya yaxınlıqdakı kolun arxasına keçərək, tənhalığa çəkilib, Rəbbinə dua etməyə başlayır. Deyilənə görə camaat evinə çatmamış yağış yağmağa başlayır və bütün əkinlər su içir.

Bu əhvalat yadıma Musa peyğəmbərin bir hədisini saldı:

*Allah Bəni İsrailə yeddi il qəhətlik bəxş etdi. Musa yetmiş min nəfərlə yağış istəmək üçün müsəllaya çıxdı (Dua etmək üçün hündür bir yerə çıxmağa Müsəlla deyilir.) Xitab gəldi: "Ey Musa, mən bunların dualarını necə qəbul edim, halbuki günahlar onların üzlərinə kölgə salmışdır. Batinləri isə xəbis və çirkindir. Mənə dua edirlər, lakin yəqinləri yoxdur. Özlərini də mənim cəzamdan amanda hesab edirlər. Mənim bəndələrimdən Bərx adlı bir nəfərin yanına qayıdıb de ki, gəlib dua etsin. Mən də qəbul edim.(Qudsi hədislərdən)*

Hədisdən göründüyü kimi, Allah-təala zaman-zaman cəmiyyətin sıxıntılarını sevdiyi bəndələrinin duasıyla aradan qaldırır. Bu vaxt həmin bəndənin Allah yanındakı hörməti xalqa bəlli olur. Şeyx Hüseyn Əfəndinin Allah dərgahındakı hörməti də, həmin hadisdən sonra bir daha təsdiq oldu.

Şeyx Hüseyn əfəndinin yeddi oğlundan aşağıdakıların adları məlumdur: Lətif, Yusif, İsa, Cəlal, Abdulla, Kərim. Oğlanlarının hamısı din yolu tutaraq, övliyanın adına layiq olasalar da, Yusif Əfəndi onlardan fərqlənirdi: Ata-babalarında olan bəsirət, kəramət onda özünü daha qabarıq göstərirdi. Odur ki, o, elmi biliklərini daha da artırmaq və mənəvi dünyasını zənginləşdirmək üçün Padalı Şeyx Əhməd əfəndinin yanına getdi. Məlumat üçün bildirim ki, Şeyx Əhməd əfəndi sufiliyin Nəqşibəndiyyə qoluna mənsub Şeyx idi və bölgədə bir çox övlayaların kamal dərəcəsinə çatmasında mühüm rol oynamışdır. Nəqşibəndiyyə qolu barədə aydın təsəvvür yaranması üçün onun Həzrəti Peyğəmbərimizdən başlayan və Yusif əfəndiyə gəlib çatan qızıl silsiləsini diqqətinizə çatdırıram.

İsmayıl Şirvani ardıcıllarından olan, Nəqşibəndiyyə Şeyxi Cəmaləddin əl-Qumuği "Nəqşibəndliyin Qızıl Silsiləsini" belə açıqlayır:

*“...Sizə mənşəyindən günümüzə qədər gələn başlıca şeyxləri sayaraq, Nəqşibəndiyyə təriqətinin silsiləsini anladacağam. (Allah sənə bilmədiklərini öyrətsin).*

*Mömin şəxslər əvvəllər də müridlərinə möminliyi öyrətmək üçün şeyxlərinin və onların soyundan gələnlərin əxlaqlarını öyrətməyi adət etmişlər.*

*Mən də Nəqşibəndiyyə silsiləsini anladacağam və bu işə ruhumu, məxluqatın əfəndisi, peyğəmbərlərin qütbü, dindar insanların qəlbi, bütün islami təriqətlərin ustadı, bu təriqətləri Cəbrayıl vasitəsi ilə uca*

*Allahdan alan, Allahın bütün insanların arasında seçdiyi Həzrəti Məhəmmədə (s.a.s.) yönəldərək başlayıram.*

*Həzrəti Peyğəmbər (s.a.s.)bu yolu əfəndimiz xəlifələrin ən şərəflisi və möminlikdə birinci durumda olan Həzrəti Əbu Bəkirə ötürdü. Həzrəti Əbu Bəkr bu yolu Həzrəti Peyğəmbərin (s.a.s.) ailəsinin bir üzvü qəbul edilən Əl-Hac Salman Farisiyə ötürdü.*

*Salman Farisi də təriqəti, son dərəcə dindar və Allahın lütflərinə yetişmiş, hicrətin II əsrində Mədinədə vəfat edərək Baqi qəbirstanlığında dəfn edilən imam Qasıma ötürdü. Qasım da onu həqiqətə görə hərəkət edən imamların imamı, Cəfəri-Sadiqə ötürdü.*

*Cəfər-Sadiq Həzrət Əli əleyhissəlamın soyundan olub, hicrətin 148-ci ilində Mədinədə vəfat etmiş və Baqid, atasının və babasının yanında dəfn edilmişdir.*

*Cəfəri-Sadiq Allahın gücü ilə gücləndirilmiş, imam, allahı tanıyanların şahı Bəyazid Bistamiyə ötürdü.*

*Bəyazid Bistami də təriqəti, Allahın dostu və Onu diləyənlərin sığınağı Əbül Həsən Harakaniyə ötürdü.*

*Əbül Həsən də onu, qütblərin qütbü, imam Əbu Əli Fəramədiyə ötürdü.*

*Əbu Əli də Şeyx (**Əbu Yaqub Yusif**) Həmədaniyə ötürdü.*

***Yusif Həmədani** də xalqın sığınağı Əbdülxaliq Gücdüvaniyə ötürdü.*

*Əbdülxaliq Gücdüvani də onu insan sifətindən təmizlənmiş, imam, övliyaların qütbü, şeyx Arif Rivgeriyə ötürdü.*

*Arif Rivgeri də dünyəvi qayələrdən tamamilə sıyrılmış olan, şeyxlərin şeyxi Mahmud İncir əl-Fağneviyə ötürdü.*

*Mahmud İncir də özünü Allah eşqinə həsr etmiş, imam Həzrət Əzizan adı ilə tanınan Əli ər-Ramiteniyə ötürdü.*

*Əli də tamamilə Allaha yönəlib, digər hər şeyi unudan imam, övliyaların qütbü, Məhəmməd Baba əs-Səmmasiyə ötürdü.*

*Məhəmməd Baba da Allahı tanıma qabiliyyətlərinin qaynağı, böyük insanların şahı, imam Seyid Əmir Külalə ötürdü.*

*Seyid Əmir də onu təriqətin imamı, insanların sığınağı, böyük ilham sahibi **Şah Nəqşibənd** adı ilə tanınan Məhəmməd üveys əl-Buxariyə ötürdü.*

*Məhəmməd də sirlər xəzinəsinin sahibi, qütblərin qütbü Əlaəddin Əttar adı ilə tanınan Şeyx Məhəmməd əl-Buxariyə ötürdü.*

*O da əfəndimiz (mövlanə) Hisarlı imam Yaqub Ərhiyə ötürdü.*

*O da Xacə Əhrar adı ilə tanınan Səmərqəndli Şeyx Abdullaha ötürdü. O da şeyxlərin şeyxi, mövlanə Məhəmməd Zahidə ötürdü.*

*O da əmisioğlu, şeyx, imam, mövlanə dərviş Məhəmmədə ötürdü.*

*O da möhtərəm oğlu mövlanə Xacə əs-Səmərqəndi əl-Amlanakiyə ötürdü.*

*O da ilahi eşq qədəhinin doldurucusu, güclü imam sahibi, qütb şeyx Məhəmməd Baqiyə ötürdü.*

*O da təriqəti kəramətlər sahibi, sirlərin qaynağı, İmam Rəbbani ismi ilə tanınan Şeyx Əhməd Faruqi Sirhindiyə ötürdü.*

*O da öz sirlərini əlində saxlayan oğlu, şeyxlərin şeyxi Məhəmməd Məsuma ötürdü.*

*O da həqiqət dənizində boğulan, oğlu, haqq dostlarının şahı Şeyx Səfiəddinə ötürdü.*

*O da ilahi müşahidə və haqqı tamaşa sahibi, böyüklərin şahı, imam Bədvanlı Seyid Nur Məhəmmədə ötürdü.*

*O da böyük imam, həqiqət günəşinin seçilmişi Həbibullah Maravcaniyə ötürdü.*

*O da qütbül-övliya, təmizlik nümunəsi, zahiri və batini mükəmməlliyə sahib olan Dehlili Şeyx Abdullaha ötürdü.*

*O da doğruluğun qütbü, Allah aşiqi, əfəndimiz, imanın nuru Süleymaniyyəli Şeyx Xalidə ötürdü.*

*O da xalqın sığınağı və həqiqət xəzinələrinin sahibi, böyük imam Kürdəmirli Şeyx İsmayıla ötürdü.*

Mövlanə Kürdəmirli Hacı İsmayıl əfəndinin təlimi, bir neçə xətlə davam etmişdir ki, onlardan da biri Hacı Yəhya bəy əl-Qutqaşini əl-Məki - Hacı Yunus Əfəndi Lələli- Almalı Şeyx Mahmud Əfəndi- Şeyx Əhməd əfəndi Talalı - Padarlı Şeyx Hüseyn əfəndi və onun oğlu Şeyx Yusif əfəndi xəttidir.

Şeyx Yusif əfəndinin Padar kəndindəki məzarının başdaşında aşağıdakı sözlər həkk olunmuşdur.

الشان
كل نفس ذائقة الموت
هذا المرقد انعالم الربان الكامل الهمدانى
المرحوم يوسف افندى ابن حسين افندى البيانى
... فى سنة خمس و عشرين الف ثلثمائة
و رجعت نفسه الى لهار مرضيه ...
فى سنة ثلث و ثلثمائة رحمة الله
بولدى يوسفيم بو دنيادن فرج رحلت ايدوب
حرف ابجد عشرين
دوشدى تاريخنه اونك

*“Bu kamilləşmiş rühani alim (alim ər-rəbbani) əl-Həmədani mərhum Yusif əfəndi ibn Yusif əfəndi əl-Bəyani hicri 1325 (1907-1908)-ci ildə xəstələndi və 1914-cü ildə xəstəlikdən nəfəsi dayandı və mənim Yusifim bu dünyadan köçdü*”

Başdaşındakı yazıdan göründüyü kimi, Şeyx Yusif əfəndi kamillik dərəcəsinə çatmış bir alim, övliya olmuşdur. Başdaşındakı yazıda diqqət çəkən digər məqam burada **Yusif Həmədaninin** adının çəkilməsidir. Qeyd edim ki, yuxarıda Nəqsibəndiyyənin qızıl silsiləsində adı çəkilən Yusif Həmədani İranın Həmədan şəhərində hicri 440-cı ildə doğulmaqla, İslam tarixində tanınmış alim və övliya olmuşdur. Miladi 1140-cı ildə dünyasını dəyişən bu övliyanın adının burada yazılmasının görünməyən tərəfləri vardır. Belə ki, övliyaların həyatda görünən mürşidləri (müəllimləri) ilə yanaşı, görünməyən mürşidləri də olur ki, onlar həmin mürşidin yolunu və yarımçıq qalan işlərini davam etdirirlər. Məsələn, Şamaxılı övliya Şıx Eyyub babanın mürşidi Həzrət Babadır ki, onların həyatda yaşadıqları zaman arasında min ilə yaxın fərq vardır.

Yusif Həmədaninin də adının Yusif Əfəndinin başdaşında yazılması onlar arasında mənəvi əlaqəyə və davamçılığa işarədir.

Şeyx Yusif əfəndinin bölgədə irşad fəaliyyəti göstərərək, bir çox din xadimlərinin yetişməsində əməyi olmuşdur. Onlardan Padarda Sədi babanın, Şəkidə Məhəmməd Əfəndinin adları bizə məlumdur.

Sədi baba söhbət edirmiş ki, bir gün bölgənin bütün din xadimlərini Şəkiyə topladılar. Türkiyədən gəlmiş mötəbər din xadimlərinin təşkil etdikləri bu yığıncaqda Dağıstanın və Azərbaycanın şimal-qərb bölgəsinin rühaniləri iştirak edirdilər. Məclisin qızğın vaxtında Türkiyədən gələn şeyx üzünü şəkililərə tutaraq dedi: *"Ey Şəkililər, Yusif Əfəndini qoruyun, o, Şəkidə bir dənədir".* Sonra üzünü btün məclisə tutb dedi: *"Ey Qafqazlılar, Yusif Əfəndini qoruyun, o, Qafqazda bir dənədir."*

Şeyx Yusif əfəndinin həyatını araşdıranda məlum olur ki, o, həqiqətən də öz dövrünün yeganəsi olmuşdur. Fəqət nə şəkililər, nə də qafqazlılar onu qoruya bilmədilər. Çünki Allah ona çox az ömür yazmışdı: cəmi 35 il. O, bu ömrü şərəflə yaşadığından və Allaha həsr etdiyindən, bu gün müqəddəs məzarı ziyarətgahdır.

XX əsrin ilk illərində Qafqaz müftisi Yusif Əfəndiyə məktub yazaraq bildirir ki, Erməni və Gürcü keşişləri canişinin yanında bir ümumqafqaz toplantısı keçirərək Quranın İncildən aşağıda olduğunu isbat etməyi və bundan sonra bütün Qafqazda müsəlmanları mənən sıxışdırmağı planlaşdırırlar. Xahiş edir ki, bu toplantıya tutarlı bir məqalə hazırlasın. Yusif Əfəndi toplantıya qısa vaxtda monoqrafiya təqdim edir və çox

uğurlu nəticə alınır. Keşişlərin məkirli planı baş tutmur. Buna görə Müftinin Yusif Əfəndiyə yazdığı cavab məktubunda *"Müsəlmanlar Sizin bu xidmətinizi heç vaxt unutmayacaqlar*" təşəkkürü var idi.

.... Yuxarıda qeyd etdim ki, Yusif əfəndi məşhur alim və övliya Şüeyb əfəndinin nəslindəndir. Yəqin elə buna görədir ki, Hüseyn əfəndi öz nəvəsinin (Abdullanın oğlunun) adını Şöyüb qoydu. Bu gün Şöyübin oğulları Siyavuş, Niyazi, Abdulla, Səlahəddin və Eyvaz öz nəsillərinin adına layiq yaşamaqdadırlar.

Bu nəsilin digər qolundan olan Teyyub Əfəndi Oğuz rayonunun Muxas kəndində Yaşamışdır. (Onun qız nəvəsi Aftandil Mehtiyev Moskvada yaşamaqla, kimya elimlər doktorudur.)

Nəslin digər qolundan olan Yusif Həsən oğlu Yusifov Oğuz rayonunun Bayan kəndində yaşamaqla, uzun müddət rayonda müxtəlif vəzifələrdə çalışmışdır.

## HACI ƏBDÜSSƏLAM ƏFƏNDİ
*(Salam Baba)*

*Rəhman və Rəhim olan Allahın adı ilə*

***«Qurani-Kərimdən və Həzrət Peyğəmbərin (s.ə.s) hədislərindən sonra Rəbbin xas qullarının sözlərindən daha gözəl heç bir söz yoxdur. Çünki onların sözləri lədun elmidir. Kəsbi deyildir. Buna görə də onlara peyğəmbərlərin varisləri deyilir. O xas qulların kəlamlarını dinləyənlərin qəlbi feyzlə dolar. Səy və cəhdləri artar. Sirlər onlara ayan olmağa başlayar və şeytani vəsvəsələrlə dünyəvi ehtiraslardan xilas olarlar.»***

***«Allah dostlarının bir qismi həzrət Adəm xislətli, bir qismi həzrət İbrahim, həzrət Musa, həzrət İsa xislətli; bir qismi də Məhəmməd (s.ə.s) məşrəblidir. Bunlardan bir qismi irfan əhli, bir qismi məhəbbət və könül əhli, bir qismi tövhid əhli; bir qismi də məchuldur. Yəni təvazökarlıq və gizliliklər içindədir…»*** *Mövlanə Cəlaləddin Rumi.*

Padarda yaşayan Allah dostlarından biri də Hacı Əbdüssəlam Əfəndidir ki, xalq arasında Salam Baba kimi tanınır və bugünədək ziyarət olunur. O, XIX əsrdə qonşu Garaz kəndində doğulub. Həmin əsrin 80-ci illərində bu kəndi sel apardığından, ailəlikcə Oğuz rayonunun Xaçmaz kəndinə köçüblər. Molla Əhməd əl-Bəyaninin nəslindən olan Əbdüssəlam Əfəndi gənc yaşlarında Talalı övliya, Nəqşibəndi şeyxi Hacı Əhməd əfəndidən təsəvvüf elminin sirlərini öyrənməyə başlayır. Burada o, kamal dərəcəsinə çatdıqdan sonra, mürşidi tərəfindən Padar kəndində irşad etmək üçün Şeyx təyin olunur. Onun hərtərəfli

biliyə malik mükəmməl bir alim olduğu qəbrinin üstündəki kitabədən də görünür. Belə ki, onun Padarın «Bazar yeri» məhəlləsindəki qəbrinin baş daşındakı ərəbcə mətnin tərcüməsi belədir (mətn quranın 29-cu surəsinin 57-ci ayəsi ilə başlayır):

*«Hər bir kəs ölümü dadmalıdır. Sonra siz Bizə doğru qayıdarsınız.»*

*«Bu qəbir alim, fazil, kamil şeyx əl-Hac Əbdüssalam Əfəndi ibn molla Əhməd əl-Bəyaninindir. Allah onların yatdığı yerlərini rahat etsin və qəbirlərini nurlandırsın. Peyğəmbərin hicrətindən 1325-ci (1907/1908) il»*



Başdaşının arxa tərəfindəki ərəbcə kitabədə isə deyilir:



*«Ey ziyarət edənlər, bilin ki, burada dəfn olunan şəxs sağlığında böyük alim, müdərris, tədqiqatçı, kamil şeyx idi. Onun mürşüdi, şeyx və ustadı Talalı əl-Hac Əhməd Əfəndi olmuşdur. Onun torpağı müqəddəs olsun».*

Daha sonra bütün sufilərdə olduğu kimi Quranın 55-ci surəsinin 26-27-ci ayələri həkk olunub:

*«Onların eşitdikləri söz ancaq «Salam» olacaqdır. Sağ tərəf sahibləri ! Kimdir onlar?!»*

Kitabədəki yazılardan da göründüyü kimi, Şeyx Əbdüssəlam Əfəndi Böyük alim və tədqiqatçı olmuşdur. Onun dilçilik mövzusunda bir neçə əsəri olsa da, təssüf ki, bu günümüzə gəlib çatmamamışdır. 1937-ci illərin repressiyası dövründə bu kitabların bir hissəsi torpağa basdırılmışdır. Onun qalan əsərlərindən və zəngin kitabxanasından bəhrələnərək, dilçi alim, filologiya elimlər doktoru, Akademik Əbdüləziz Dəmirçizadə bir çox əsərlər yazmışdır.

Hacı Əbdüssəlam Əfəndi Gülzar xanımla ailə qurmuş, Əbdulrəhim, Əhməd, Abdulla, Məhəmməd adında oğlanları, Salihə, Malikə, Barikə adında qızları olmuşdur.

Şeyxin oğlu Abdulla Nübar xanımla ailə qurub, Əhməd adlı oğlu, Məriyəm, Məkkə, Firuzə, Zərifə adlı qızları olmuşdur. Daha sonra Abdulla 1942-ci ildə müharibəyə getmiş, Mozdokda 58-ci diviziyada döyüşmüşdür. 1943-cü ilin yanvarında Kuban çayını keçərkən, əsgərlərdən çoxu boğulmuşdur. Ondan sonra Abdulladan heç bir xəbər olmamış, nə də «qara kağız» gəlməmişdir.

Hacı Salam Babanın oçağı bu gün də xalq tərəfindən sevilə-sevilə ziyarət olunur, kəramətindən faydalanılır. Onun kəramətlərinə dair bir çox əhvalatlar bu gün də maraqla söylənilməkdədir.

Deyilənə görə Əbdüssəlam Əfəndi səhər namazına duranda görür ki, evin çardağında bir nəfər oturub, belində də bir kisə buğda var. Şeyx onun kimliyini soruşanda, məlum olur ki, gecə oğurluğa gəlmiş bu şəxs bir kisə buğda götürüb, amma, yerindən qalxa

bilmir, eləcə gecədən donub qalıb burada. Övliyanın ona yazığı gəlir və deyir icazə verirəm, buğdanı götür get. Baba sübh namazını qılıb qurtardıqda, həyat yoldaşı Gülzar xanım xəbər verir ki, oğru darvazandan çıxanda yenidən donub qalıb, yerindən tərpənə bilmir. Cavab verir ki, mən icazə versəm də, ocaq icazə vermir, buğdanı qoysun, getsin. Oğru buğdanı qoyub, çıxıb gedir.

Şeyxin nəslindən olanlar söhbət edir ki, onun həyətində palıd ağacının dibində bir ağ ilan yaşayırdı. İlan gündə bir dəfə evin qabağına gələr, Nübar nənə (Şeyxin gəlini) mis camda onun qabağına süd qoyardı. İlan südü içib, yerinə qayıdardı. Bəzən də ilan südü içəndən sonra dayanıb gözləyirdi. Onda Nübar nənə çörəyin üstünə yağ yaxıb, ilanın qabağına qoyardı. İlan çörəyi yedikdən sonra, çəkilib gedərdi.

Bir gün Nübar nənə baramaqurduna vermək üçün həyətdəki tut ağacının budaqlarını qırırmış. Birdən kəsdiyi budaqdan onun üstünə qan sıçrayır. İkinci budağı kəsdikdə, yenə eyni hadisə təkrar olunur. Nənə əlindəki dəhrəni yerə qoyub, gəlib, eyvanın qırağında durur və deyir özümü pis hiss edirəm, deyəsən nə isə bədbəxt bir hadisə olacaq. Aradan 15-20 dəqiqə keçmiş xəbər gətirirlər ki, Nübar nənənin səhhətində sağalmaz xəstəlik aşkar edilən qızı özünü suya ataraq, intihar edib.



***Salam Babanın oğlu Əhməd*** (ayaqüstə)

acı Əbdüssəlam əfəndinin yaşadığı həyətdə bugünədək

musiqili toy etmək mümkün deyil. Bir gün Şeyxin nəvəsi (Abdullanın qızı) Məryəmə toy edirlərmiş. Yay olduğundan, camaat həyətdə ağacların altında outrublarmış. Günortadan sonra musiqi çalınmağa başlayanda, qəflətən hava dəyişir və göy gurultusu, şimşək çaxması insanlarda vahimə yaradır. Qəfil gələn fırtına ağacların budağını qoparıb, adamların üstünə atır. Vəziyyəti belə gördükdə, toplaşanlar hamısı dağılıb gedirlər. Məclis əhli dağılışan kimi hava açılır. Bu hadisədən sonra həmin ocaqda musiqi çalınmır.

# MOLLA MİRMƏHƏMMƏD ƏFƏNDİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

***«Elmlərdən bəzi gizli olanları vardır ki, onları ancaq «arifi-billah» olanlar anlayar. Bu elmdən bəhs etdikləri vaxt onları ancaq məğrur və özlərini bəyənən camaat cahilliklə suçlayarlar. Əsla Haqq-təalanın öz fəzlindən elm verdiyi alimləri kiçik görməyin! Çünki Haqq-təala onlara o elmi verərkən onları kiçik görmədi».*** *Əbu Hureyrə.*

Padar kəndinin yaxın keçmişində iz qoyan möminlərdən biri də Molla Mirməhəmməd Hacı Miryunis oğludur. Onun atası Ağdaş rayonunun Şəkili kəndində yaşamış, 25 il ali ruhani təhsili almış və yaşadığı bölgənin şeyxi olmuşdur. Babası Molla Feyzullah Əfəndi də bölgənin sayılıb-seçilən din xadimlərindən idi.

Azərbaycanda sovet hökuməti qurulduqdan sonra bütün ziyalı, gözüaçıq adamları məhv etməyə başladılar. O cümlədən bu repressiya dalğası Mirməhəmməd Əfəndinin ailəsindən də yan keçmədi. Onun iki qardaşı və qardaşı uşaqları Sibir çöllərinə sürgün olundu. Ağdaşın hakimi Molla Mirməhəmməd Əfəndiyə xəbər göndərdi ki, adı qara siyahıya salınıb, qaçıb, canını qurtarsın. Əfəndi Gürcüstanın Batumi şəhərinə hicrət etdi. Üç aydan sonra ölüm xəbəri gəldi. Doğulduğu kənddə ehsan verildi, yas saxlandı, nəhayət dörd aydan sonra özü gəlib çıxdı. Fəqət kənddə yaşamağın təhlükəli olduğunu görüb, Oğuz rayonunun Yemişənli

kəndinə (1932-ci ildə) köçdü. Burada o, dindar olduğunu və şeyxin oğlu olduğunu gizlədirdi. Nəhayət bir gün bu fakt üzə çıxdıqda, Oğuzun Filfilli kəndinə, bir neçə ildən sonra burada da onları tanıyanda, Oğuzun Ərmənət kəndinə, 60-cı ildə isə Padar kəndinə köçdü.

Padarda onlar öz nəsillərini gizli saxlamağa çalışır, gizli ibadət edirdilər. Nəhayət bir gün onun Quranı dərindən bilən bir din xadimi olduğu üzə çıxdıqda, padar ağsaqqalları onun yanına gələrək, kəndin mollası olmağı xahiş etdilər və onu repressiyalardan qoruyacaqlarına söz verdilər.

Həmin vaxtdan Molla Mirməhəmməd Əfəndi açıq ibadət etməyə və məclislərdə dini təbliğ etməyə başladı. Onu bir neçə dəfə həbs etmək istəsələr də, ağsaqqalların səyi nəticəsində, ələlxüsus da Gülməmməd kişinin fədakarlığı sayəsində bunun qarşısı alındı.

Padar camaatı Mirməhəmməd Əfəndinin xidmətlərini unutmur və bu günə qədər onun kənddəki məzarını ehtiramla yad edirlər.

## HACI ABDULLA PADARLI

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Padar kəndində ziyarət edilən qəbirlərdən biri də şair Abdulla Padarlının şərif məzarıdır. O, Padar kəndində Çayqıraq məhəlləsində doğulub. İlk təhsilini atası Məhəmməd Dursun oğlundan aldıqdan sonra, Ağdaş mədrəsəsinə daxil olmuşdur. Daha sonra elmi biliklərini artırmaq üçün Dəməşq şəhərinə üz tutmuşdur. Burada Ali Ruhani məktəbini bitirdikdən sonra Həcc ziyarətinə getmişdir. Ərəbistana səfəri vaxtı İranı, Türkiyəni və digər ölkələri də səyahət etmişdir. O, Dəməşqdə tarix, fəlsəfə, məntiq, tibb, poettika və nücum elmlərinə yiyələnmişdir. Hacı Abdulla Padarlı doğma ana dilindən başqa ərəb, fars, türk və avar dillərini də bilmişdir. Onun Pəri adlı bir qızı olmuş, sonrakı nəsli də, bu qızın vasitəsilə davam etmişdir. Şair Abdulla alagöz, sarışın, uca boylu qıvraq adam olmuşdur. Gözəl nitq qabiliyyəti varmış, adi söhbətlərini də çox zaman qafiyəli nəsirlə edərmiş. O, Şeyx olaraq, irşad fəaliyyəti göstərmiş və tələbələr yetişdirmişdir.

Müasirlərindən Mücrüm Kərim Vardani, Şeyx Səməd (bəzi mənbələrdə Şah Səməd də deyirlər), Məlikballı Qurban və Ağdaşlı Molla Şabanla şerləşdiyi məlumdur. Təbiəti çox sevirmiş. Təmiz əxlaqlı, gülərüz, səxavətli, pak, vətənsevər insan olmuş, başqalarını da belə görmək istəmişdir. Abdulla Padarlının gözəl sənət nümunəsi olan şeirlərindən bəziləri Salman Müttazın «El şairləri» kitabında çap olun-

muşdur. 1979-cu ildə isə Əzizə Cəfərzadənin «Abdulla padarlı» adlı proşurası çap olunmuşdur.

Əzizə Cəfərzadə həmin kitabında şairin 1770-75-ci illərdə doğulduğunu,1885-ci ildə isə vəfat etdiyini qeyd edir. Professor Məşədixanım Nemətova isə Padarın Qala yeri qəbiristanlığında Şeyx Hacı Abdullanın başdaşındakı ərəbcə yazının aşağıdakı kimi olduğunu öz kitabında qeyd etmişdir:

عنه غافلا معروف الدنيا تدوم لو احدًا لكانت الانبياء فيها بحددًا
حسبًا أِنّنا نبقى زمان ببقاء الموت فى الدنيا محالاً ما انتقل من دار
الفناء الى دار البقاء الشيخ حاجى عبد الله بن دورسون البـدارى
و مات ق فى صفر ٢٢ غفر الله ١٣٢٣



*«Məlumdur ki, əgər dünyada bir adam qalsa belə, o dövr edəcəkdir. Dünyada peyğəmbərlər də bir-birini əvəz edərək gəlib gediblər. Dünyada ölüm olmasına baxmayraq, biz dünyada çox qalacağıq (yəni adımız əbədi olacaq). Şeyx Hacı Abdulla ibu Dursun əl-Padari yerini təzələyərək, fani dünyadan bağı dünyaya köçdü və 22 səfər 1323 ildə (28.04.1905) vəfat etdi:»*

Bu kitabədəki yazıda diqqət çəkən digər maraqlı məqam Hacı Abdullanın Dursun Padar nəslindən olmasıdır. Belə ki, Şeyx Dursun Padar məşhur övliya olmaqla Ağsu rayonunda olan günbəzi müqəddəs ziyarətgahlardandır. Onun məzarı üstündəki daşda

ərəbcə kitabə vardır ki, kitabənin ərəbcə mətnini MEA Etnoqrafiya institunun əməkdaşı professor Məşədixanım Nemətova aşağıdakı kimi tərcümə etmişdir:

*«Bu xoş rayihəli müqəddəs(ziyarətgah) və işıqlı məqbərə, övliyaların görkəmlisi Şeyx Dursun ibn Əhməd Padarındır. Onun vəfatı haram zilhiccə ayı, səkkiz yüz birinci (1399) ildə baş vermişdir»*

Şeyx Dursun türbəsi haqqında akademik B.Dornun və tarixçi C. Aleksandroviçın kitablarında da rast gəlinir. M.Nemət Akademik B.Dornun fondunda Şamaxı şeyxləri haqqında yazılmış maraqlı bir arayışa diqqəti cəlb edir. Dorn onu XIX əsrdə Şamaxıda olarkən əldə etmişdir. Arayışda deyilir:

*«Vaxtilə Şamaxıda «Piri-şirvan» adıyla şöhrət tapmış bir məzar olmuşdur. Burada dəfn olunmuş övliyanın adı Şeyx Mikayıl ibn Seyid Cəbrayıl ibn Seyyid Salahdır. Ərdəbildə məzarı məşhur olan Şeyx Səfi həmin bu Şeyx Mikayılın böyük qardaşıdır. Şeyx Səfi qardaşını Şirvanşahların dövləti zamanı Şirvana irşad etməyə (dini təbliğ etməyə) göndərmişdir. Necə ki, öz övladlarından olan şeyx Cüneydi (Şah İsmayıl Xətainin babası-müəllif) Quba vilayətinə irşad etməyə göndərib. (Hazırda onun türbəsi Qusar rayonunun Həzrə kəndindədir-müəllif) Şeyx Mikayıl Şirvan vilayətində çox-çox irşad edib və «Piri-pirani Şirvan»-«Şirvan pirlərinin piri» adını alıb. Həmin arayışda daha sonra Şeyx Dursun Padar haqqında qısa və maraqlı məlumat vardır: «Şeyx Dursunun əsli Şirvan əhlindəndir. Xançobanı mahalından, Padar tayfasındandır. Şeyx Dursun qoşun hissəsindən Kalaxana*

*qəryəsinin qərbində vaqe olan məşhur yeddi günbəzlər bu Şeyx Dursunun övladlarındandır».*

Burada diqqət çəkən ən maraqlı məqam Şair



Abdulla Padarlının baş daşında həmin bu Şeyx Dursun padarın nəslindən olduğunun göstərilməsidir. Onu da qeyd edim ki, Şeyx Dursun Padarın övladlarının Şamaxıda (Yeddigünbəz), Ağsuda, Göyçayda irşad fəaliyyəti göstərmələri və qəbirləri bu gün də ziyarətgaha çevrilmələri barədə «Doğrulan ümüdlər» kitabımda bəhs etmişəm.

Padar kəndində tədqiqat apararkən əmin oldum ki, onun törəmələri bu kənddə də irşad etmiş və haqqında bəhs etdiyim şair və övliya Şeyx Hacı Abdulla Padarlı da bu nəsilin törəmələrindəndir.Şairin əlyazmaları AMEA əlyazmalar insititutunda bu günədək saxlanmaqdadır. Həmin əlyazmalardan bir neçəsini diqqətinizə çatdırmağı vacib saydım.

*Adam gərək öz-özünə düşünə,*
*Kimnən gəzim, necə gəzim, harda mən.*
*Tay-tuşlarım uyğun olsun özümə,*
*Danışanda utanmayım orda mən.*

*Oturanda gərək bilim yerimi,*
*Niyə durum görən kimi birini?*

*Nə danışım, nə də verim sirrimi,*
*Cəhl düşsün, məğlub olum zorla mən?!*

*Danışanda sərhəd çəkim sözümə,*
*Qiymət qoyum çünki özüm-özümə.*
*Qoşa barmaq uzanmasın gözümə,*
*Balıq kimi çabalamayım torda mən.*

*Abdullayam, haqq-hesabı qanmışam,*
*Haqsızlığa alışmışam, yanmışam,*
*Çoxlarını candan əziz sanmışam,*
*Çox az gördüm yaxın gələn darda mən!*

(bax: bu kitabın “Padar şairləri” fəslinə)



# SOYQRIM



# ERMƏNİ VƏHŞİLİYİNİN PADAR KƏNDİNDƏKİ İZLƏRİ

Azərbaycan tarixinə nəzər saldıqda, kafir ermənilərin zaman-zaman müsəlman əhalinin üzərinə basqın edib, qadına, uşağa, qocaya, cavana baxmadan, hamını gülləbaran edərək, soyqırım törətdiklərinin şahidi olmaq olar. 1918-ci il martın 30-31-də və aprelin 1-də Bakıda, aprel və may aylarında Şamaxı, Qəbələ, Oğuz, Şəki, Kürdəmir, Lənkəran, Qarabağ və digər bölgələrdə müsəlmanlara qarşı kütləvi qırğınlar törətdilər; 50 mindən çox insan qətlə yetirildi. Bu vaxt Azərbaycanın özünün müstəqil dövləti, ordusu olmadığından, qardaş Türkiyə dövlətinə yardım üçün müraciət olundu. Türk ordusu gələnə qədər ermənilər qırğınları davam etdirdilər. Nuxaya gedən yolda ermənilər biçindən evə qayıdan 23 müsəlmanı öldürmüşdülər. Çanaq-bulaq, Kirdalul, Nic kəndlərinin erməni keşişləri öz kilsələrində müsəlmanların hər cür qətlə yetirilməsini təbliğ edirdilər. Ermənilərin bölgədəki qərargahı Şəkinin Qayabaşı kəndində idi. Nuru Paşanın rəhbərliyi ilə Türk ordusu Azərbaycana daxil oldu. Oğuz bölgəsində bu ordunun bölməsinə Abdulla Paşa rəhbərlik edirdi. O, öz toplarını Şəkinin Sarıcan kəndindəki təpənin üstündə quraraq, erməni mövqelərini atəşə tutmağa başladı. Burada erməniləri susdurandan sonra, Oğuzun Vardanlı və Padar kəndlərinə gəldi.

Burada Abdulla Paşa Qərib Yüzbaşının evində qalırdı. 1898-ci il təvəllüdlü Vardanlı Qurban kişi

söhbət edirmiş ki, Oğuzun Calut kəndində ermənilər müsəlman əhaliyə ağılasığmaz işgəncələr verdiklərinin şahidi olmuşdur: körpə uşaqları diri-diri çəpərin payalarına keçirmiş, qadın və kişilərin kürəyinə qaynayan samovar bağlamış, hamilə qadınların diri-diri qarnını yarıb, uşaqlarını çıxarıb, məhv etmişlər. Əliyalın əhali silahlı kafirlərin qarşısında dayana bilməyib, dağlara çəkilmişlər. Belə bir məqamda Türk ordusu azərbaycanlı qardaşlarının köməyinə çataraq, onlara da silah vermiş və birlikdə erməniləri yerində oturtmuşlar. Türk ordusunun bölmələri Padar kəndində yerləşdiklərindən, onların şəhid olan əsgərləri bu kənddə dəfn olunmuşlar. İndi həmin qəbiristanlığa Qəriblər qəbiristanlığı deyirlir.



***(Qəriblər qəbristanlığı)***

## PADAR KƏNDİNİN ŞƏHİDLƏRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

***«İman gətirib hicrət edənləri, Allah yolunda malları və canları ilə vuruşanları Allah yanında ən yüksək dərəcələr gözləyir. Onlar nicat tapanlardır*** *(səadətə qovuşanlardır). Quran,* «Tövbə» surəsi, 20.

Azərbaycan tarixinə nəzər salanda kafir ermənilərin zaman-zaman xalqımızın üzərinə hücum etdiyini və qanlı qırğınlar törətdiyini görmək olar.

1905-1918-ci illərdə onların Azərbaycan xalqına qarşı törətdiyi soyqırımın yaraları sağalmamış, XX əsrin sonlarında yeni bir soyqırım cinayətinə əl atdılar. Bütün dövrlərdə olduğu kimi, bu dəfə də millətimizin vətənpərvər, mərd oğulları silaha sarılaraq, quduzlaşmış erməni kafirlərinin qarşısına çıxdılar. Belə bir məqamda Padar kəndinin də qeyrətli cavanları xalqımızın müdafiəsinə qalxdılar. Onlardan bəziləri sağ-salamat qayıtsa da, bir neçəsi əlil, iki nəfəri isə şəhidlik məqamı qazandı.Bu kitabda onlar haqqında da məlumat verməyi özümə borc bildim.

### *Şəhid Arzu Əliyev*

Arzu Yaqub oğlu Əliyev 1963-cü ilin avqustunda Oğuz rayonunun Padar kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra, Mərdəkandakı milis məktəbinə daxil olmuşdur. Təhsilini başa vuraraq, bir müddət Bakı və Sumqayıt şəhərlərinin hü-



quq mühafizə orqanlarında, daha sonra isə Şəki rayon milis idarəsində çalışıb. 1990-cı ilin dekabırında dostu Mikayıl Cəbrayılov və digər milis yaddaşları ilə Şuşa rayonunu quduzlaşmış ermənilərdən qorumaq üçün Qarabağa yola düşdülər.

Bir gün o, Əsgəran rayonunun Cəmilli kəndindən, Şuşanın Kosalar kəndinə yük aparan «ZİL-130» markalı minik maşınını müşayət edirdi. Qəflətən kafirlərin qurduqları pusquya düşdülər. Qeyri-bərabər döyüş başladı. Ermənilər əlverişli mövqedə gizləndiklərindən, mühasirədə qalan Arzu və dostlarının müqaviməti fayda vermədi. Onlar Vətən yolunda canlarını qurban verərək, şəhidlik məqamına yüksəldilər.

Oxuduğu Padar kənd orta məktəbi və Oğuz şəhərində bir küçə Arzu Əliyevin adını daşıyır.

### *Şəhid Həsən Həsənov*



Həsən Əsabəli oğlu Həsənov 1972-ci ildə Padar kəndində doğulub. Qarabağın başı üzərini qara buludlar alanda, Həsən də Vətənin müdafiəsinə qalxdı. Ağdərə uğrunda gedən döyüşlərdə bir neçə dəfə yaralansa da, geri çəkilmədi.

Sonra Murovdağ uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid oldu.

***«Müharibəyə getməyib, evlərində oturan və müharibəyə getmiş qardaşları haqqında: «Əgər onlar sözümüzə qulaq assaydılar, öldürülməzdilər» - deyənlərə söylə: «Əgər doğru deyirsinizsə, onda*** *(bacarıb)* ***ölümü özünüzdən uzaqlaşdırın!»***

***«De: «Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə də əbədi yatacaqları yerlərə gedərdilər…»*** *Quran, «İman ailəsi» surəsi, 168-ci ayə.*

Quranın bu ayəsini oxuduqdan sonra yadıma Süleyman Peyğəmbərin dövründə baş vermiş bir əhvalat düşdü. Əhvalat belə olmuşdur.

*Bir düha vaxtı (günəş cıxdıqdan bir müddət sonra) Həzrəti Süleymanın sarayına saf bir adam təlaşla gəlir. Saray növbətcilərinə həyati bir məsələylə bağlı təcili olaraq padşahla görüşəcəyini söyləyir və dərhal icəri alınır.*

*Həzrəti Süleyman (ə.s) bənizi saralmış, qorxudan titrəyən bu adamdan soruşur:*

*-Xeyir ola, nə olub ki, belə qorxu icindəsən, dərdin nə imiş? Cəkinmə, söylə mənə.*

*Adam təlaş icində:*

*-Bu səhər qarşıma Əzrayıl (ə.s.) cıxdı, mənə hirsli baxdı və dərhal uzaqlaşdı. Anladım ki, canımı almağa qərarlıdır.*

*Həzrət Süleyman soruşdu:*

*-Yaxşı, neyləməyimi istəyirsən?*

*Adam yalvarır:*

*-Ey canlar qoruyucusu, məzlumlar sığınağı olan Süleyman! Sən hər şeyi etməyə qabilsən. Qurd-quş, dağ-daş sənin əmrindədir! Əsən rüzgarına əmr elə, qoy məni buradan ta Hindistana çatdırsın. Güman edirəm ki, o zaman Əzrayıl (ə.s) bəlkə məni tapa bilməz. Beləcə canımı qurtarmış olaram. Mədət səndən!*

*Həzrət Süleyman bu saf bəndənin bu qədər yalvarışı qarşısında onun halına acıyır.*

*Rüzgarı çağırır və əmrini verir:*

*-Bu adamı dərhal al, qanadların üztündə apar Hindistanda burax!*

*Ağzında rüzgar deyirsən; bir əsər, bir kükrəyər: Adamı qanadları üstünə alar və bir anda Hindistanda uzaq bir adada yerə qoyar.*

*Günortaya yaxın Həzrəti Süleyman divanı toplayaraq gələnlərlə görüşməyə başlayır. Birdən nə görsə yaxşıdır: Əzrayıl (ə.s) da toplumun içinə qarışmış, divanda oturmuşdur. Dərhal Əzrayılı yanına çağırır:*

*-Ey Əzrayıl! Bu gün o adama nədən düşmənçiliklə baxdın? Nədən o zavallını qorxutdun da, evindən-eşiyindən ayırıb, avara etdin? –deyir.*

*Əzrayıl (ə.s) cavab verir:*

*-Ey dünyanın ulu sultanı! Mən o adama acıqlı, düşmənçiliklə baxmadım. Heyrətlə baxdım. O, məni yanlış anladı, həyəcana qapıldı. Onu burada görüncə çaşıb qaldım. Çünki Allah (c.c) mənə:*

*-Haydı, get bu axşam o adamın canını Hindistanda al - deyə əmr etmişdi.*

*Ancaq mən bu adamın yüz qanadı dəxi olsa bu axşam Hindistanda ola bilməz, bu necə işdir deyə heyrətlərə düşdüm. Bax ona qarşı heyrətli baxşımın səbəbi sadəcə bu idi.*



*(Padar kəndində Şəhidlərin Məzarlığı)*

### *Padar kəndindən Qarabağ mühraibəsində yaralanaraq əlil olanlar*

1. Rəhimov Qalib
2. Sehranov Hikmət
3. Səmədov Novruz
4. Səmədov Yusif
5. Şirinov Zaman

# Цряклярдя йашайанлар

# QƏRİB YÜZBAŞI

Padar kəndində yaşamış, bölgənin, ümumilikdə Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamış tarixi şəxsiyyətlərdən biri də Qərib yüzbaşıdır. Bu kitabı yazmağa başlayanda onun da haqqında araşdırma apardım və alimə professor Ədalət Tahirzadənin "525-ci qəzet"də çap olunmuş bir məqaləsi düşdü. Məqalədə Qərib yüzbaşı haqqında çox dolğun informasiya olduğundan xırda ixtisarla həmin məqaləni kitaba daxil edirəm.

***QƏRİB MƏHƏMMƏDKƏRİM oğlu*** *(Kərim oğlu)*

*(1870, Xaçmaz k./Oğuz-09.10.1926, Padar k./Oğuz)*

*1917-ci il fevral inqilabindan sonra Şəki qəzasının Vartaşın nahiyəsində İcraiyyə Komitəsinin sədri, 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti Məclisi-məbusanının (Parlamanının) üzvü, görkəmli ictimai xadim, Azərbaycanda Amerika və Avropa kənd təsərrüfatı texnikasını ilk tətbiq edən sahibkarlrdan biri.*

Arxiv sənədindən öyrəndim ki, Qərib Kərim oğlu Şəki qəzasının Padar kəndindən məbus (deputat) seçilib. Dəqiqləşdirdim ki, Padar indiki Oğuz rayonundadır, ora yola düşdüm.

## *Anket bilgiləri*

AR Dövlət Arxivində Qərib Kərim oğlunun məbus (deputat) anketi qorunub saxlanır. Burada bütün deputatlara verilən 5 sual belə cavablandırılıb.

**1**. İsmi, pədərinin ismi (atasının adı) və şöhrəti (soyadı)

*Kərim oğlu Qərib, Şəki qəzasından Padar qəryəsində.*

**2**. Hanki şəhər və qəryədə (kənddə) təvəllüd etdiyi tarixi.

*Padar qəryəsində, Şəki qəzasından Padarda, təvəllüdü 1870.*

**3.** Hanki məktəbdə nə kibi təhsil görüb, hanki sinifdən qətaət etdiyi (çıxdığı, bitirdiyi).

*Əski üsulunda mədrəsədə ibtidai təlim görmüş.*

**4** Əzalığa (üzvlüyə) daxil olmadan qabaq məşğuliyyət, məmuriyyət və sənəti.

*İnqilab dövründə (1917-nin fevral inqilabı nəzər-də tutulur - Ə.T) Şəki qəzasında Vartaşın nahiyəsində İcraiyyə Komitəsinin sədri olmuş.*

**5.** Deputatın müxtəsər tərcümeyi-halı

*"Əkinçiliyə olan istedad və həvəsindən dolayı, Şəki qəzasında son ixtira olunan ziraət makinəsini (kənd təsərrüfatı texnikasını) ilk əvvəl istemal edən (işlədən) və xalqa lüzumunu anladan işbu zatdır. Çalışqanlığı sayəsində mənsub olduğu camaatın hüsnü təvəccöhünü qazanmış olduğundan, bir çox ictimai xidmətlərdə bulunmuş və bilaxərən intixab olunaraq Məclisi-məbusana üzv təyin olunmuşdur".*

Buradan aydınlaşır ki, Qərib Kərim oğlu (bəzi sənədlərdə onun soyadı "Kərimov" kimi də göstərilib) təhsilini mədrəsədə alıb. O, Azərbaycanda çarizmin yıxıldığı ən qarmaqarışıq bir dönəmdə, hakimiyyətsizlik üzündən anarxiyanın tüğyan etdiyi bir çağda **Şəki qəzasının Vartaşın nahiyəsində İcraiyyə Komitəsi kimi ən mühüm hakimiyyət orqanına başçılıq edib.** Görünür ki, onu bura xalq xahiş-minnətlə qoyubmuş, çünki bütün bölgədə çox böyük nüfuzu vardı və baş verən xoşagəlməz hadisələrin qarşısını yalnız belə bir fövqəladə hörmətli şəxsin sayəsində almaq mümkündü. Ancaq Qərib Kərim oğlu rəsmi dövlət vəzifəsinə deyil, kənd təsərrüfatı sahəsindəki yeniliklərə can atdığına görə bütün ömrünü torpaqla bağlayıb, "dünyanın o başından" gətirdiyi oçağkı ən çağdaş texnikayla yaratdığı möcüzələrdən zövq alıb.

Yeri gəlmişkən, bütün Padar ağsaqqalları onu yalnız "Qərib yüzbaşı" adlandırır, bu faktsa **1917-ciilədək onun Padar kəndinin böyüyü-yüzbaşı olduğunu** qətiyyətlə təsdiqləyir. Arxivlərdə məqsədyönlü araşdırmalar aparılsa Qərib Kərim oğlunun hakimiyyət qurumlarındakı fəaliyyəti haqqında daha dolğun bilgi əldə etmək olar.

Faktı dəqiqləşdirmək üçün AR Tarix Arxivindən Gəncə quberniyası Şəki qəzası Xaçmaz və Padar kəndlərinin əyal dəftərlərini (kameral təsviri) axtarıb tapdım.

Xaçmaz kəndinin 1863 tarixli əyal dəftərində bu kəndin Otmanlı sahəsində yaşayan **Məhəmmədkərim Əhməd oğlu** 878-ci nömrəylə qeydə alınıb. Burada

onun özünün 35 yaşı (deməli, 1828-də doğulub), oğlu Lətifinsə 10 yaşı olduğu (1853-də doğulub) göstərilib. Bu Məhəmmədkərim Əhməd oğlu Qərib yüzbaşının atası, Lətif isə böyük qardaşıdır.

Padar kəndinin 1886 tarixli əyal dəftərinə Qərib yüzbaşıyla bağlı qeydlər 1912-də əlavə edilib. Burada 42 yaşlı (deməli, 1870-də doğulub) **Qərib Məhəmmədkərim oğlu`**nun özü, arvadları Salatın Əhməd qızı (32 yaş; 1880), Züleyxa Mustafa qızı (29 yaş; 1883), oğlu Hümbət (12 yaş; 1900), qızı Cəmilə (ona “Nazilə” də deyiblər; 14 yaş; 1902), qardaşı oğlu Məhəmməd Lətif oğlu (30 yaş; 1882), onun arvadı Zəliha Hacı Məhəmməd qızı (22 yaş; 1890) qeydə alınıblar.

Bu sənəddən aydınlaşır ki, **Qərib (Məhəmməd) Kərim oğlu Xaçmazdan Padara 1912-ildə köçüb gəlib.**Yeri gəlmişkən, bu gün Qərib yüzbaşının varisləri “Kərimov”, qardaşı Lətifin oğlu Məhəmmədin uşaqlarısa (Həmid, Yaqub, Nəsibə, Firuzə) “Lətifov” soyadı daşıyır.

Padar kəndinin mərkəzindəki kiçik qəbiristanlıqda olan Qərib yüzbaşının çay daşından hazırlanmış başdaşında oyma üsuluyla ərəbcə yazıb ki, **Qərib Kərim oğlu 2 rəbiüs-sani 1345-də cümə günü (miladi tarixlə 9 oktyabr 1926-da) vəfat edib.**

Başdaşının ən alt hissəsində türkcə bu beyti oxuyuruq:

*Ey güzər edən bu qəbrə,*
*Bu ölümü sən də qan,*
*Həqq rizasiyçün bənim*
*Ruhimə ol "Fatihə" xan.*

Öncə Qərib (Məhəmməd)kərim oğlunun nəslini öyrənməyə çalışdım. Törəmələri dedi ki, Qərib yüzbaşının atası (Məhəmmədkərim Əhməd oğlu) Xaçmaz kəndindəndir. Qəriblə kiçik qardaşı uşaqkən atadan yetim qalıblar. Çox kasıb olduqlarına görə dolanışıqları ağır keçib. Hərəsinin bir çöycəsi (mis kasası) varmış. Dolana bilmədiklərinə görə iki qardaş Padar kəndinə gəlib. Kiçik qardaş subaymış və bir dəfə qonaqlıqdaykən ev yiyəsinə atılan güllənin qurbanı olub.

Vur-tut 56 il yaşamış Qərib yüzbaşının, sən demə, çoxlu arvadı olub, ancaq onlardan indi üçünün adı bəllidir: Salatın xanım (1880-1919), Zuleyxa xanım (camaat ona "Quqqu" deyirdi) (1883-?) və Telli xanım. İlk ömür-gün yoldaşı Salatın xanım ona oğul və iki qız bağışlayıb. Oğlu Hümmət (1900-1946) bütün Şəki qəzasında ilk ali təhsilli həkimlərdəndi (onun haqqında ayrıca danışılacaq). Hümmət həkimdən 4 övlad qalıb: Vüslət (1930), Rauf (1933-2000), Almaz (1938), Fuad (1941-1992). Qərib yüzbaşının Salatından olan qızları Nazilə və Fəzilənin nəsli indi də Oğuz rayonunda yaşamaqdadır. İkinci yoldaşı Züleyxa xanımdan bircə uşaq olub və o qalmayıb. Telli xanımdansa iki oğlu olub: Knyaz (1922), Əhmədiyyə

(1922). Onların da çoxlu törəmələri indi əsasən Oğuz rayonunda yaşayır.

Buraya çatanda Qərib yüzbaşının özündən sonrakı maraqlı qohumluq bağlarından danışmasam olmaz. Vaxtilə Qərib (Məhəmməd) Kərim oğlu Şəkinin ən varlı adamlarından olan iki qardaşla: Məşədi Cabbar və Məşədi Xəlil Həsən oğlu Dadanovlarla çox yaxın dostluq edib. Görünür, bu dostluğu əbədiləşdirməyə çalışan oğlu Hümmət həkim atasının vəfatından 2 il sonra - 1928-də Məşədi Cabbar Dadanovun qızı Lətafət xanımla ailə qurub. (Məşədi Cabbarı 1930-dakı Şəki üsyanı zamanı kommunistlər məhv edib).

## *Padarda*

Qərib yüzbaşı coşqun təbiətli, enerjili və hədsiz zəməksevər, daim yeniliyə can atan, hamı kimi yaşamağı xoşlamayan adam olub. 1912-də Padara bircə çöycəylə gələn bu insan 4-5 ilin içində öz çalışqanlığı, əlindəki bir manatın harada və nə qədər qazanc gətirəcəyini düzgün hesablamağı bacarması sayəsində təkcə bu kənddə yox, bütün Vartaşında sözükeçən kişilərdən birinə çevrilməklə yanaşı, özünə mal-mülk, var-dövlət də qazandı. Görünür, elə bundan sonra dövlət vəzifələrinə irəli çəkildi. Ancaq yuxarıda dediyim kimi, o, vəzifəni yox, torpağı, stol arxasında oturmağı yox, çöldə tər axıtmağı sevirdi. Əkinçilik, meyvəçilik və heyvandarlıq işləri onun yaşamının cövhəriydi.

Padar torpağının az qala yarısı, Padarın aşağısındakı Daşüz sahəsinin xeyli hissəsi artıq onundu. Yemişənli kəndində qızıləhmədi alma bağı və fındıqlığı vardı. Padardakı bağında əkdiyi meyvələri xaricdən gətirmişdi.

**Qərib (Məhəmməd)kərim oğlu Azərbaycanda Amerika və Avropa kənd təsərrüfatı texnikasını ilk tətbiq edən sahibkar olmuşdur (sovetlərdən qabaq!).**

Örətdiyi məhsulu o, özünün **kənddə tikdirdiyi dəyirmanda və dingdə** emal edirdi.

Təbiətcə çox əliaçıq adam olan Qərib (Məhəmməd) Kərim oğlu həm də yoxsulluğun amansız üzünü gördüyündən yoxsulların pənahıydı. Qapısına borca gələn kimsəni əliboş qaytarmazdı. Özü də bu zaman o, insanlar arasında millət fərqi qoymazdı; müsəlmanlarla yanaşı, Oğuzun yəhudi camaatını da aclıqdan qurtarmış, taxıl anbarlarının qapılarını onların da üzünə açmışdı. Buna görə də bütün Vartaşın camaatı ona hədsiz sayğı bəsləyirdi. Hətta bir dəfə qaçaqlar onun faytonunun qabağını kəssələr də içindəkinin Qərib yüzbaşı olduğunu biləndə böyük hörmətlə yola salmışdılar.

Qərib yüzbaşı yaxşı bilirdi ki, yeni texnikanı işlətmək, ümumiyyətlə, cəmiyyəti irəli aparmaq üçün savadlı, bacarıqlı insanlar gərəkdir, buna görə də soydaşlarının savadlanmasına çalışırdı. **Kənddə məscid tikdirmişdi** və burada ibadətlə yanaşı, kənd gənclərinin yazıb-oxuma öyrənməsinə də xüsusi önəm verirdi.

Burası da maraqlıdır ki, Qərib yüzbaşı məscidi tikdirdikdən sonra oğlu Hümmətin yanında deyibmiş ki, gərək məscidi rənglədəm. Nə yazıqlar ki, buna onun ömrü çatmadı. Atasının sözlərini vəsiyyət kimi qəbul edən Hümmət həkim sovet hökumətinin dindarlığa qarşı mübarizəsinin ən qızğın çağında-1929-da "nə olacaq olsun!" deyərək hətta ölümü də göz önünə almış və öz xərcinə həmin məscidi rənglətmişdi. **Allahsız kommunistlər bunun üstündə onu həbs edərək Bakiya apardılar və 2 il sorğu-sualsız Bayl-da yatırdılar!** Bundan sonra onlar məscidi yandırdılar (zirək tərpənərək xalça-palazını qabaqcadan mənimsəmışdilər).

## *Hümmət həkim*

Qərib yüzbaşı 1900-də doğulmuş ilk oğlu Hümməti də savadlı bir insan etmək istəyirdi, buna görə də onu Tiflisə apararaq gimnaziyaya qoymuşdu. Buranı uğurla bitirən Hümmət Kərimov Bakı Universitetinin tibb fakültəsinə girərək 1925-də həmin fakültənin ilk buraxılışının məzunları arasında olmuşdu; başqa sözlə desək, o, Azərabaycanın özünün yetirdiyi ilk ali təhsilli həkimlərimizdəndir.



Təyinatla Padara həkim göndərilsə də

heç bir şərait yoxdu. Atası dadına çatmışdı - Qərib yüzbaşı öz xərciylə kənddə xəstəxana binası tikdirmişdi (indi orada Hümmət Kərimov adına Padar kənd xəstəxanası yerləşir). Sonra Göyçayda poliklinika müdiri işləyən Hümmət həkim 1939-da Qəbələyə göndərilmiş, orada həm can həkimi, həm də hərbi həkim kimi düz 10 il insanlara şəfa vermişdi. Bu gözəl insan Qəbələdə çalışarkən – 1946-da ağır xəstələnmiş, həmin ilin avqustunda Moskvada dünyasını dəyişmişdi...

### *Parlamanın "əhrar"çı üzvü*

"Azərbaycan" adını daşıyan ilk müstəqil dövlətimiz – Azərbaycan Cümhuriyyəti 1918-də qurularkən Qərib (Məhəmməd)kərim oğlu Şəki qəzasının Vartaşın nahiyəsində İcraiyyə Komitəsinin sədiriydi (bu vəzifəyə 1917-ci il fevral inqilabından sonra seçilmişdi). 1918-də yerlərdə həmin vəzifəni daşıyan şəxslərin çoxu həm də yerli Milli Komitələrin sədri olaraq öz bölgəsində baş verən bütün hadisələrdə el ağsaqqalı kimi yaxından iştirak edib. Belə olmasaydı erməni-müsəlman qırğını zamanı Vartaşında da soydaşlarımızın imdadına yetişmiş türk əsgərləri 1918-də məhz Padarda – Qərib yüzbaşının mülkündə yerləşməzdi (bu faktısa bütün Padar qocaları təsdiqləyir). Türk paşası şəxsən Qərib yüzbaşının evində qalırdı.

**Bütün bu deyilənlər Qərib (Məhəmməd)kərim oğlunun o çağda Vartaşında ən nüfuzlu kişi olduğunu təsdiqləyir.** 1918-in sonunda Cümhuriyyətin Məclisi-məbusanı (Parlamanı) yarananda bu üzdən də

Vartaşın camaatı oraya məhz Qərib yüzbaşını layiq gördü.

Məclisi-məbusanda Qərib Kərim oğlu "Əhrar" partiyasını təmsil edirdi. Abdulla bəy Əfəndizadənin (sonralar Aslan bəy Qurdaşovun) başçılıq etdiyi "Əhrar" fraksiyasına Hacıhüseyn Əfəndizadə, Muxtar Əfəndizadə, Hacıəli Qasım oğlu, Abdulla əfəndi Qabulov (sonralar oğlu Baba əfəndi Qabulov), Əşrəf bəy Tağıyev, Bayram Niyazi Kiçikxanlı, Məşədi Səməd Kərbəlayı Məhəmmədhəsən oğlu da daxildilər.

Parlamanın sənədlərində onun ad-soyadı iki cür göstərilib: *"Qərib Kərim oğlu", "Qərib Kərimov" (*bəzi sənədlərdə yanlış olaraq *"Qara Kərim oğlu", "Qara Kərimov"* da yazılıb).

Qərib yüzbaşı Parlamanın işində müntəzəm çalışan deputatlardandı.

Parlamanın 24 aprel 1919 tarixli iclasının stenoqramı qarşımızdadır. İclasın sədri *Həsən bəy Ağayev* bildirir ki, torpaq komissiyası 3 dəfə yığışmadığına görə buraxılır və onun yeni heyəti seçilməlidir. Həsən bəyin təklifiylə partiyalar bu komissiyaya öz namizədlərini verir. Seçiləməküçün hər deputat 42 səsdən ən azı 22-sini yığmalıydı. Keçirilmiş gizli seçkinin nəticələrini *Abbasqulu Kazımzadə* açıqlayır: 26 səs toplamış *Qərib "Kərimov"* ən çox səs yığmış *Məhəmmədəmin Rəsulzadə, Aslan bəy Qardaşov, Cavad bəy Məlikyeqanov, Əliheydər Qarayev, Heybətqulu Məhəmmədbəyov* və b. ilə birgə torpaq komissiyasına üzv seçilib. Bu seçkidə ən çox səs toplayan həmin 7 nəfər Məhəmmədəmin Rəsulzadənin təkli-

fiylə həm də fəhlə komissiyasına üzv olur. Beləliklə, **Qərib (Məhəmməd)kərim oğlu Parlamanın iki mühüm komissiyasına eyni zamanda üzv seçilib.**

## *Şuralar dönəmində*

Allahsız kommunistlərin qanlı ağalığı illərində Qərib (Məhəmməd)kərim oğlu da başqa Parlaman üzvləri kimi təqib olunub və incidilib, ancaq **onu həbs etməyi hətta "NKVD" cəlladları da bacarmayıb!**

Nəvəsi Almaz xanım danışır ki, sovet çağında babamı tutmaqçün Padara adamlar göndərilib. Xəbər ildırım sürətiylə bölgəyə yayılıb. Vartaşının özündə və nahiyənin əksər kəndlərində bunu eşidən yüzlərcə insan pay-piyada, ayaqyalın-başıaçıq Padara yol alıb. Özümüzünkülərlə - müsəlmanlarla yanaşı, başqa millətlərin nümayəndələri də, xüsusən Vartaşın yəhudiləri sinələrini qabağa verərək onu silahlılardan qoruyublar. 18 kilometr yolu piyada gəlmiş yəhudilər birağızdan deyib ki, aclıq vaxtında bu kişi bizi qırılmaqdan qurtarıb, indi də biz onu heç kəsin əlinə vermərik! **Nahiyədən gəlmiş bütün adamlar Qərib yüzbaşının həyətinin ətrafına canlı çəpər çəkib və silahlıların içəri girməsinə imkan verməyib. Xüsusən başqa millətlərin də bu "müsavatçı", "istismarçı" və "qolçomağı" belə qətiyyətlə müdafiə etməsi bolşevikləri əməlli-başlı çaşdırıb və onlar əliboş geri qayıtmalı olub.**

Qərib yüzbaşı da hakimiyyətlə kəllə-kəlləyə gəlməyib. O, əmlakını, Amerika və Avropadan götirdiyi

bütün texnikasını könüllü yeni hakimiyyətə bağışlayıb. Xatırladım ki, bu zaman hələ kolxozlaşma başlanmamışdı.

Hakimiyyətlə münasibətlər üzdən nə qədər "dəymə mənə - dəyməyim sənə" prinsipiylə qurulsa da kommunistlər yerlərdəki nüfuzlu adamlardan, xalqı öz arxasınca aparacaq kişilərdən hədsiz qorxur, onları açıq və gizli yollarla məhv edirdilər. Görünür, Qərib yüzbaşıyla da bağlı gizlilik taktikası seçilibmiş. Doğrudur, bu gün əlimizdə onun məhvinə çalışılmasıyla bağlı heç bir yazılı və şifahi tutarqa yoxdur, ancaq vur-tut 56 yaşlı sağlam bir insanın birdənbirə və ürək tutmasından vəfat etməsi daxili sarsıntıların nəticəsi deyildimi?! Beləliklə, Qərib (Məhəmməd)kərim oğlu **1926-nın 9 oktyabrında dünyasını dəyışıb.** Bu zaman kənddə olmayan oğlu Hümmət həkim onun son nəfəsinə yetişə bilməyib. Atasını hədsiz məhəbbətlə sevən, onun adı çəkiləndə həmişə ayağa duran oğul üç gün onun məzarı başında qarovul çəkib (komada ola biləcəyinə və yenidən dirilə biləcəyinə umud bəsləyib)...



***Qərib yüzbaşı***

***Ədalət Tahirzadə***

*"525-ci qəzet" 17, 24, 31 may 2008-ci il.*
*N 87, 92, 96.*

## SƏMƏD VURĞUN PADARDA

Təbiət vurğunu olan xalq şairi Səməd Vurğun Azərbaycanın dilbər guşələrini gəzib, təbiətin gözəlliyindən zövq almağı xoşlayardı. Onun ən çox səfər etdiyi bölgələrdən biri də Vartaşin rayonu idi. Buranın səfalı təbiəti, yaşıl meşələri, buz bulaqları şairi çox cəlb edirdi. Odur ki, Vurğun tez-tez bu yerlərə qonaq gələr, hər gələndə də Padarlı dostu, kolxoz sədri işləyən Qasımov Hidayətin qüonağı olardı. Onunla birlikdə bir neçə gün təbiətin qoynunda gəzər, həm ov edər, həm də buranın füsünkar gözəlliyindən ilham alaraq, bulaqların başında oturub şeir yazardı. Belə səfərlərin birində o, Padar kəndinin qırağındakı bulağın başında "Ceyran " şeirini yazmış və yanındakı ovçu yoldaşlarına oxumuşdu. Aradan bir müddət keçəndən sonra, Hidayət kişi həmin şeiri radiodan eşidəndə heyrət etmiş və sevinclə uşaqlarına demişdi ki, bu şeir bizim kənddə yazılıb və şeirin ilk dinləyicilərindən biri də odur.

Hidayət Qasımov söhbət edərmiş ki, Səməd Vurğun ov həvəskarı və sərrast atıcı olsa da, özü heyvana güllə atmağı xoşlamazmış. Adətən bərədə dayanıb, ovu nişan alar, amma tətiyi çəkməyə tələsməzmiş. Qəsdən yubanarmış ki, ovçu yoldaşları atsınlar. Təbiətə gözəllik verən bu yaraşıqlı heyvanları öldürməyə şairin əli gəlməzmiş. Elə ona görə də, şeirində *"Qıyma öz qanına boyana ceyran, nə gözəl yaraşır muğana ceyran"*-yazırdı Vurğun.

Hidayət Qasımovun ad günündə iştirak edən Səməd Vurğun dostuna bir dənə aynalı beşatılan, bir dənə də xəncər bağışlayıb. Lakin, Hidayət kişi rəhmətə gedəndə onun sevə-sevə saxladığı bu yadıgarı, eləcə də, birlikdə çəkdirdikləri şəkilləri qardaşı Şükür saxlamaq üçün öz evinə aparıb. Sonralar Şükürün evində yanğın baş vermiş, həmin əşyalar da orada yanmışdır. Odur ki, böyük şairdən Padarlılara xoş xatirələr və burada yazdığı şeirlər qalmışdır.

Bu yerlərdə Vurğunu xoş xatirələrlə yada salanlardan biri də Kərimli kənd sakini Yetim Qara idi. Çörək pulunu maşın yumaqla qazanan bu zəhmət adamı, şairin səxavətindən ağız dolusu danışarmış. Deyirmiş ki, rayonun birinci katibinin maşınını yuyanda üç mant verir, yeri gəldi- gəlmədi üstümə də qışqırırdı. Vurğunun maşınını yuyanda isə, ondan pul almaq istəməzdim, amma özü zorla cibimə “iyirmibeşlik” basardı. Maşına da baxmazdı ki, necə yumuşam.

## GÜLMƏMMƏD KİŞİ

*Rəhman və Rəhim olan Allahın adı ilə.*

***“Yaxşı əməl heç də** (ibadət vaxtı) **üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə inanan,** (Allaha) **məhəbbəti yolunda malını** (kasıb) **qohum-əqrabaya, yetimlərə, yoxsullara,** (pulu qurtarıb, yolda qalan) **müsafirə, dilənçilərə və qulların azad olunmasına sərf edən, nama qılıb, zəkat verən kimsələr, eləcə də əhd edəndə** (söz verəndə) **əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə və cihad zamanı səbr edənlərdir. Doğru olanlardır. Müttəqi olanlar da onlardır”.** Quran, “İnək” surəsi , 177-ci ayə.*

Ayədən göründüyü kimi, Allah-təala yaxşı əməli heç də təkcə ibadətlə ölçmür, qazancından Allah-yolunda yoxsullara, qohum-əqrabaya, yetimlərə sərf edən, sözünə düz olan adamları yaxşı əməl sahibi kimi qəbul edir.

Belə gözəl əməl sahiblərindən biri də Padar kənd sakini, el ağsaqqalı Gülməmməd kişi idi. XIX-XX əsrlərdə yaşayan bu əməlisaleh insan təkcə öz nəslinin deyil, bütün kəndin görən gözü, qazanan əli, danışan dili idi. O, gözüaçıqlığına, uzaqgörənliyinə görə başqalarından fərqlənirdi. Odur ki, kənd camaatı xeyir-şər işlərini onunla məsləhətləşər, rəhbərlər onunla hesablaşardılar. O, öz fədakarlığı, mübarzliyi ilə kənd sakinlərindən bir neçəsini 1937-ci ildə şərlənərək,

həbs olunmaqdan xilas etmişdi. Onun xilas etdiyi adamlardan biri də, övliya nəslindən olan din xadimi Feyzullayev Mirməhəmməd Miryunus oğlu idi. Kəndin sovet sədri erməni Göyüş Molla Mirməhəmməd babanı həbs etdirib, arabaya mindirəndə, Gülməmməd kişi həyatını riskə qoyaraq, sovet sədri ilə mübahisə etmiş və din xadimini azad etmişdi. Övliyanın bügünki törəmələri var olduqlarına görə, göydə Allaha, yerdə babalarını xilas edən Gülməmməd kişinin ruhuna dua oxuyurlar.

O, qazancından Allah yolunda xərcləməyi sevərdi. Həm qohum-əqrəba, həm də kənddə olan yetimlər, kasıblar, imkansızlar Allahdan aşağı ona güvənərdilər. Odur ki, Gülməmməd kişi dövrünün xöyreyyəçisi kimi tanınırdı.

Gülməmməd kişi etdiyi yaxşılıqların əvəzini Allahdan daim alardı. Belə ki, evindən ruzi bərəkət heç vaxt əskik olmazdı. O, Nəcabət xanımla ailə qurdu və Süleyman, Məhəmmədiyyə, Hüseyn adında üç oğlu, Nazilə adında bir qızı oldu. 1959-cu ildə 106 yaşında dünyasını dəyişdi.

Onun oğlu Süleyman Həsənov halal, xalqın etimadını qazanan adam olduğundan, Böyük Vətən Müharibəsindən qabaq bir neçə kənddə kolxoz sədri işləyib. Yaşlı adamların danışdığına görə, işlədiyi dövrdə heç vaxt xalq malına tamah salmadı, özünü xalqdan üstün tutmadı, onların haqqını və namusunu qorudu. II dünya müharibəsinə yola düşən Süleyman kişi geri qayıtmadı. Onun Zalikə xanımla

nigahindan Sabir, Əşrəf, Tofiq, Gülqədəm və Nigar adlı övladları qaldı.

Süleyman kişinin oğlu Əşrəf Həsənov öz mənəvi zəngiliyinə və dürüstlüyünə, el-obanın qeyrətini çəkdiyinə görə kənddə böyük hörmət qazanmışdı. Camaatın xeyir-şərində can yandırdığına və əlindən gələn bütün maddi-mənəvi köməyi əsirgəmədiyinə görə hamı onu sevirdi.

Onun Ballı xanımla nigahından Əbubəkr, Əjdər, Muxtar, Araz, Rəşad, Qoşqar adında oğlanları, Sevil və Ruhəngiz adında qızları qaldı.

Həzrət Əli Əleyhissəlam buyurur ki, övladların ən xeyirlisi öz ata-babasının yolunu davam etdirəndir. Gülməmməd kişinin də xeyirxah işlərini bu gün nəvəsi Muxtar davam etdirir. Belə ki, Muxtar Gülməmmədov iş adamı olaraq, Bakı şəhərində yaşamasına baxmayaraq, tez-tez doğulduğu kəndə gedir və burada olan imkansızlara, xəstələrə baş çəkərək, onların problemlərini həll edir. Ağsaqalların danışdığına görə Muxtar müəllim hər il Qurban bayramında bir neçə qurbanlıq heyvanı kəsdirərək, Padar və ətraf kəndlərin əhalisinə payladır. Bəlkə də etdikləri bu yaxşılıqların əvəzidir ki, Allah-təala ona yüksək məqam, geniş imkanlar bəxş edib. Çünki Rəbbim buyurur:

***"Loğman öz oğluna dedi: "Oğul, yaxşılıq etməkdən çəkinmə. Çünki, etdiyin yaxşılıq bir xardal dənəsi boyda olsa və o, bir qayanın içində və yaxud daşın altında, yerin təkində olsa belə, yenə də Allah onu sənin qarşına çıxarar, əvəzini verər".*** Quran, "Logman" surəsi, 16-cı ayə.

## SABİR HƏKİM

Öz qayğıkeşliyi, mehribanlığı, xeyirxahlığı ilə Padar camaatının xatirəsində əbədi yaşayan insanlardan biri də uzun müddət kənddə həkim işləmiş Sabir həkimdir. Odur ki, onun da tərcümeyi halına qısa nəzər salmağı vacib sayıram.



Mürsəlov Sabir Şeyx Məhəmməd oğlu 1938-ci ildə Qax rayonunun Malax kəndində doğulub. 10 yaşı olanda anası, 15 yaşı olanda isə din xadimi olan atası dünyasının dəyişir. Orta məktəbi bitirdikdə pasport almaq üçün Qaxa gəlir. Həmin dövrdə pasport almaq çox çətin olduğundan balaca Sabir umudini üzüb, bağdakı oturacaqda oturaraq, fikrə dalmışdı. Birdən yanında təxminən 10 yaşlarında uşağın dayandığını gördü. Uşaq ondan niyə belə qəmgin olduğunu soruşdu və səbəbini bildikdə, Sabiri xəstəxanada həkim işləyən anasının yanına apardı; ondan xahiş etdiki bu oğlanın pasport almasına kömək etsin. Beləliklə Sabir Mürsəlov sənədlərini Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə verir və qəbul olunur. III kursdan isə ixtisasını dəyişmək qərarına gəlir; universitetin kitabxanaçılıq fakültəsinin qiyabisinə keçərək, Azərbaycan Tibb İnsitituna əyani qəbul olunur.

Yaxınlarının danışdığına görə, yetimliklə böyüyən Sabir universitetə yamaqlı paltarda gedirmiş. Qurup

yoldaşlarından imkanlı ailədən olan bir qız ona təzə paltar, kostyum alıb gətirsə də, qüruruna sığışdırıb, qəbul etmir. Özü gecə növbəsində işə düzəlir və dolanışığını təmin edir. Beləliklə, 1967-ci ildə Tibb İnsitutunu bitirən Sabir həkim, Vartaşen rayonunun Padar kəndinə təyinat alır. Çox keçmir ki, öz savadı, qayğıkeşliyi, əməlisalehliyi, mehribanlığı ilə tək Padarda deyil, ətraf kəndlərin əhalisinin də sevimlisinə çevrilir.

Burada bir maraqlı məqamı da qeyd etmək istəyirəm ki, əsası Qərib Yüzbaşı tərəfindən qoyulan Padar kənd xəstəxanası bölgədə ilk tibb müəssisəsi olmaqla yanaşı, həkim sarıdan bəxti həmişə gətirmişdir. Belə ki, burada Azərbaycan Tibb institutunun ilk məzunlarından olan Hümmət həkim



xidmət etmiş və xalqın rəğbətini qazanmışdır. Ondan sonra da bu xəstəxanada xidmət edən həkimlərin hamısı yüksək savada, peşəkarlığa və gözəl insani keyfiyyətlərə malik olmuşlar. Sabir həkimin simasında da bunu aydın görmək olurdu.

Sabir həkim şair təbiətli insan idi; gözəl şerlər yazırdı. Müasirlərindən yazıçı Gəray Fəzli, şair Şəmşad Rza, Sərdar Əsədlə dostluq edirdi. Sağlığında *«Torağay nəğməsi»* adlı şerlər kitabı çap olunub.

Sabir həkim öz qohumu, Alman dili müəllimәsi Solmaz xanımla ailə qurub. Övladları müxtəlif sahələrdə çalışırlar. 2007-ci ildə 68 yaşında dünyasını dəyişən Sabir həkimin qəbri Padar kəndində, xatirəsi insanların qəlbindədir.

Oxucuların marağını nəzərə alıb, onun *«Torağay nəğməsi»* kitabından götürdüyüm iki şeri bu kitaba daxil edirəm.

(bax: kitabın "Padar şairləri" fəslinə)

# LÜTVİYAR HƏKİM

Padar kəndinin yetişdirdiyi həkimlərdən biri də Lütviyar Niyazi oğlu Bəşirovdur. O, 1964-cü ilin 6 oktyabırında Oğuz rayonunun Padar kəndində doğulub. 1982-ci ildə burada orta məktəbi bitirib. 1985 –ci ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinə daxil olub. 1991-ci ildə buranı fərqlənmə diplomu ilə bitirərək, M. Topçubaşov



adına Elmi Tədqiqat Eksperimental kilinik cərrahiyyə İnsitutunda cərrahlıq failiyətinə başlayıb. 1994-cü ildə o, vətənimizin müdafiəsi uğrunda vuruşan əsgərlərimizin sağlamlığını qorumaq üçün cəbhə bölgəsinə yola düşdü. Çünkü, Rəbbim Quran-Kərimdə belə buyurur: ***"Zərər çəkmədən evlərində əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən** (vuruşan) **Şəxslər bərabər olmazlar. Allah malları və canları ilə vuruşanları evlərində əyləşənlərdən** (cihada getməyənlərdən) **dərəcə etibarı ilə üstün tutur. Allah bunların hamısına savab vəd etmişdir. Lakin mücahidlərə evlərində oturan möminlərdən daha böyük mükafatla imtiyaz verilmişdir."*** *"Qadınlar" surəsi, 95.*

Lütviyar həkim də, bu hikməti dərk edərək, öz elmi ilə bu cihada qoşuldu. Belə ki, o, N saylı Hərbi Səhra Cərrahiyyə hospitalında baş ordinator,

neyrocərrah vəzifəsində, çalışaraq, döyüşdə yaralanan neçə-neçə igid oğullarımızı ölümün pəncəsindən xilas etmişdir. Onun bu xidmətlərini nəzərə alan ordu rəhbəliyi 1995-ci ildə N saylı hərbi hissənin baş ordinator-neyrocərrahı vəzifəsinə təyin edib. Bu vəzifədə də özünü doğruldan Lütvüyar Bəşirov 1996-cı ildən daha yüksək vəzifəyə-MN Mərkəzi Hərbi Kilinik Hospitalının neyrocərrahiyə bölməsinin ordinator vəzifəsinə təyin olunur. O, hal-hazırda bu vəzifədə çalışaraq, əsgərlərimizin sağlamlığını qorumaqdadr.

Ailəlidir, iki övladı var.

## PADAR KƏNDİNİN REPRESSİYA QURBANLARI

Azərbaycanda kommunist rejimi qurulduqdan sonra milli ruhlu ziyalılara, kadrlara və savadlı adamlara qarşı total repressiyalara başlanıldı. Millətimizin minlərlə vətənpərvər övladı güllələndi və yaxud uzaq sibir çöllərinə sürgün edilərək, qəsdən məhv edildi. Bu cür repressiya dalğası Padar kəndindən də yan keçmədi. Burada da bir çox ziyalılar, nisbətən imkanlı adamlar, möminlər həbs edilərək, ya güllələndi, ya da gedər-gəlməzə göndərildi. Onlardan bəzilərinin adlarını çəkməyi özümə borc bildim.

1. Mustafa bəy
2. İbrahim bəy
3. Əhməd Paşa oğlu
4. Məcid Mistafayev
5. İsgəndər İsgəndərov
6. İsmayıl Dadaşov

...və başqaları

## PADAR KƏND MƏKTƏBİ

Qədim tarixə malik olan Padar kəndində insanlar hələ ta qədimdən yazıb-oxumağı kənddə fəaliyyət göstərən mədrəsədə öyrənirdilər. XIX əsrdə Azərbaycan Rusiyanın nəzarətinə keçəndən sonra, çar hökuməti əyalətlərdə öz siyasətini həyata keçirmək üçün rusdilli məktəblər açmağa başladı. Beləliklə, 1883-cü ilin noyabr ayının 1-də Padarda da belə bir məktəb açıldı. Bu iki otaqlı rus-tatar məktəbində həmin vaxt dörd nəfər şagird vardı ki, onlara Qori seminariyasının məzunu Mahmudbəy Mahmudbəyov dərs deyirdi. Bölgədə yeganə məktəb olan Padar məktəbi Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra beşillik ibtidai məktəbə çevrilmişdir. 1952-ci ildə isə məktəb orta ümumtəhsil politexnik məktəbinə çevrildi. Hazırda Padarda müasir tipli orta ümumtəhsil məktəbi fəaliyyət göstərməkdədir. Yarandığı gündən bu məktəbdə bir çox tanınmış pedaqoqlar dərs demişlər ki, onlardan bəzilərinin adlarını çəkməyi vacib sayıram.



1. Mahmudbəy Mahmudbəyov
2. Həmid Əzizov
3. Hidayət Mustafayev
4. Cami Müridzadə
5. Həsən Hacızadə

6. Səkinə Seyidzadə
7. Məmmədiyyə Əfəndiyev
8. Həbib Naxçıvanlı
9. Elməddin Əsədov
10. Mirömər Əfəndiyev
11. Səbzalı Səbziyev
12. Mürsəl Nəsibov
13. Zibeydə Həmidova (Qabaqcıl Maarif Xadimi)
14. Baba Şükürov
15. Məmmədəli Çələbiyev
16. Əhməd Orucov
17. İslam Vahabov
18. Nəcəf Xəlilov
19. Raisa Zaxarna
20. Bəxtiyar Haşımov
21. Mənsim Kərimov
22. Asya Cəbrayılova
23. Sevil Mövlamova
24. Fəxrəddin Mustafayev
25 Nurəddin Rəhimov (Qabaqcıl Maarif Xadimi)
26. Gülxanım İsrəfilova
27. Gülzar Tahirova
28. Şahsənəm Salehova
29. Məhəmməd İbrahimov
30. Müslüm Babayev
31. Şamil Salehov.
32. Eyvaz Hüseynov
...və başqaları.

# PADAR KƏNDİNDƏ KOLXOZ DÖVRÜ

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, bütün kəndlərdə olduğu kimi, Padarda da kolxoz yaradıldı. Burada 1933-cü ildə əsası qoyulan ilk kilxoz **Stalin** adlndırıldı. 1955-ci ildə isə Stalin hakimiyyətindən getdiyindən, kolxozun adı dəyişdirilərək, **Pravda** adlandırıldı. 1997-ci ildə isə, ölkədə aparılan islahat nəticəsində kolxoz ləğv edilərək, torpaqlar camaata paylandı. Fəaliyyəti dövründə kolxoz tütünçülük, heyvandarlıq, meyvəçilik, taxılçılıq, tərəvəzçilik və çəltik əkini ilə məşğul olmuşdur. Bu müddətdə təsərrüfata aşağıdakı şəxslər rəhbərlik etmişlər:

1. Kərimov Abdulla
2. Kərimov İslam
3. Həsənov Süleyman
4. Rüstəmov Məmmədalı
5. Salehov Kamil
6. Həsənov Məhəmmədiyyə
7. Məhərrəmov Bəhrəm
8. Tahirov Məhyəddin
9. Mustafayev Şakir
10. Kərimova Hüslət
11. Əhmədov Əlipaşa
12. Məmmədov Əfsər
13. Sərkərov Nəcəf
14. Əliyev Nemət
15. Zülfüqarov Akif
16. Zahidov Arif.

## *PADAR İCRA NÜMAYƏNDƏLİYİ*

1920-ci ildə Azərbaycanda sovetləşmə başlayanda, Padarda da kənd soveti yaradıldı. 1991-ci ildə isə, qurumun adı dəyişərək, İcra Hakimiyyətinin Padar kəndi üzrə nümayəndəliyi adlanmağa başlandı. Sovet dönəmindən bu günədək idarəyə aşağıdakı şəxslər rəhbərlik etmişlər:



1. Həmzəyev Allahverdi
2. Qasımov Hidayət
3. Həsrət müəllim
4. Çələbiyev Yusif
5. Nəsibova Məzmurə
6. Haciyev Məmmədəli
7. Çələbiyev Məhəmməd
8. Kərimov Məsim
9. Həsənova Alimə
10. Abdullayev Fərrux
11. Hüseynov Abdulla
12. Bəşirov Cavid
13. Soltanov Əbdürəhim
14. Yunusov Qərib

# PADAR BƏLƏDİYYƏSİ

Azərbaycanın hər yerində olduğu kimi Padarda da kolxoz quruluşu ləğv edilərək, əvəzində özünüidarə sistemi olan bələdiyyə yaradıldı. Kənddə 1999-cu ildən fəaliyyətə başlayan bu qurum bazar yeri adlanan ərazidəki inzibati binada yerləşir. Yarandığı gündən quruma aşağıdakı şəxslər rəhbərlik etmişlər.

1. Əsədov Arif
2. Əliyev Nadir
3. Seyranov Hikmət
4. Tahirov Elbrus
5. Kərimov İlham
6. Nəsibov Çingiz
7. Qasımov Hidayət
8. Hidayətova Səxavət.

# 1941-1945-Cİ İL MÜHARİBƏSİNDƏ PADAR KƏNDİNDƏN İŞTİRAK ETMİŞ VETERANLARIN SİYAHISI

1. İsmayılov Məhəmməd
2. İbrahimov Məhəmməd
3. Əhmədov Əhməd
4. Hüseynov Şöyüb
5. Nəsibov Mürsəl
6. Sadıqov Məhəmmədəli
7. Çələbiyev Məhəmməd
8. Nəsibov Lətif
9. Kərimov Knyaz
10. Kərimov Yusif
11. Məmmədov Məhəmməd
12. Rəcəbov Osman
13. Fərməzyar Qulu
14. Hüseynov Abduləqərim
15. Tahirov Niyazi
16. (Gülməmmədov) Həsənov Məmmədiyyə
17. Cavadov Qaffar
18. Kərimov Əhmədiyyə
19. Haşımov Bəxtiyar
20. Nəsibov Bəkir
21. Orucov Əhməd

## ƏFQANISTAN MÜHARİBƏSİ VETERANLARININ S İ YA H I S I

1.Həsənov Mehman
2.Rəhimov Ayaz
3.Əhmədov Canan
4. Rəcəbov Rəcəb



## PADAR KƏNDİNİN BƏZİ GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ VƏ TANINMIŞ ZİYALILARI

**Mustafayev Nazim Seyfi oğlu –** *(1934-1993) İqtisad e.n. Azərbaycan xalq Təsərrüfatı İnsititutunun əmtəəşünaslıq kafedrasının dekanı işləmiş ziyalı.*

**Əhmədov Ramazan Məhəmməd oğlu** (1931-1994) - *Oğuz, Mingəçevir, Sumqayıt şəhərlərində Polis şöbələrinin rəisi və DİN-də iqtisadi cinayətkarlığa qarşı mübarızə idarəsinin rəisi işləmiş vətənpərvər polis polkivniki.*

**Nəzirova Sara Mollaçı qızı** - *Azərbaycan Yazıçılar Birliyinin üzvü, tanınmış ziyalı, altı kitabın müəllifi.*

**Salehov Kamil Mustafa oğlu** - *Müxtəlif məsul vəzifələrdə çalışmış ictimai xadim.*

**Salehov Mübariz Kamil oğlu** - *həkim stomotoloq.*

**Məhəmməd əl-Karamani (Ö-1205/1790-91)-** *XVIII əsrdə Padarda yaşamış və irşad fəaliyyəti göstərmiş Şeyx, dövrünün nüfuzlu şəxsiyyəti.*

**Çələbiyev Ayaz Yusif oğlu** - *Azərbaycan Memarlıq və inşaat universitetinin müəllimi.*

**Allahverdiyev Sənani Allahverdi oğlu** - *"Azal" Hava yolları QSC-də mühəndis.*

**Əhmədov Vidadi Əhməd oğlu** - *polis polkovnik leytenantı, Nizami rayon PŞ-də narkotiklərə qarşı mübarizə bölməsinin rəisi.*

**Mustafayev Hafiz Carı oğlu-** *iş adamı.*

**Orucov Əhməd Əşrəf oğlu** - *Azərbaycan Musiqili Komediya teatrının aktyoru olmuş, tanınmış incəsənət adamı.*

**Şeyx Əhməd b.Ağabəy b.Hacı Abd Çələbibəy** (Ö- məhərrəm ayı 1246 il =22.06-22.07.1830-cu il) – *XIX əsrdə Padarda yaşamış və irşad fəaliyyəti göstərmiş Şeyx, zəmanəsinin alimi.*

**Orucova Tünzalə Əhməd qızı** - *Oğuz rayon mədəniyyət şöbəsinin müdiri işləmiş ictimai xadim.*

**Süleymanova Hədiyyə Rizvan qızı** - *Oğuz rayon İH-də referent vəzifəsində çalışan ziyalı.*

**Orucova Tinatin Əhməd qızı** - *tanınmış jurnalist.*

**Tahirli Şəlalə Eldəniz qızı** - *Oğuz rayon xəstəxanasında həkim pediatr.*

**Babayev Nüsrət Həbibullah oğlu** - *Müdafiə Nazirliyinin təqaüddə olan hərbi polkovniki.*

**Bəşirov Lütviyar Niyazi oğlu** - *Papanin qospitalında çalışan neyrocərrah, tibb xidmət mayoru.*

**Gülməmmədov Muxtar Əşrəf oğlu** - *tanınmış iş adamı, vətənpərvər xeyriyyəçi.*

**Allahverdiyev Rəsul Allahverdi oğlu** - *Oğuz rayon sanitar epidomoloji stansiyasının rəisi.*

**Kərimov Azad Bəkir oğlu** - *tanınmış iş adamı.*

**Tahirov Mahmud Əli oğlu** - *tanınmış iş adamı.*

**Haşımov Qabil Bəxtiyar oğlu** - *Azərbaycan Texniki Universitetində texnoloji maşınlar fakultəsində dekan müavini, dossent, texnika e.n., beş kitab müəllifi.*

**Hüseynov Səyavuş Şöyüb oğlu** - *Oğuz rayon xəstəxanasında çalışan tanınmış terapevt.*

**Tahirli Zümrüd Niyazi qızı** - *Kərimli kənd xəstəxanasında çalışan təcrübəli həkim.*

**Əbilov Fərrux Dursun oğlu -** *Oğuz rayon təhsil şöbəsinin inspektoru, tanınmış ziyalı.*

**Aqiyyə Həbib qızı Naxçıvanlı** – *Padar kənd orta məktəbinin məzunu olmuş ziyalı, millət vəkili, Azərbaycan Müəllimlər İnstitutunun rektoru.*

**Zəkəriyyəyeva Sədayə Abdlkərim qızı -** *Oğuz şəhərində müəllimə işləmiş ziyalı.*

**Kərimova Sədayə Rəhim qızı -** *Padar kənd həkim məntəqəsinin müdüri, təcrübəli kardioloq.*

**Pirverdiyev Etibar Sinabəddin oğlu-***"Azərenerji" QSC-nin prezidenti, Padar kənd məktəbinin məzunu olmuş tanınmış dövlət xadimi, ziyalı.*

**Hüseynov Şöyüb Abdulla oğlu** – *uzun müddət müxtəlif vəzifələrdə çalışmış ictimai xadim.*

**Əsədov Həsən Əsəd oğlu -** *vətənpərvər el ağsaqqalı.*

**Səmədov Gündüz İbad oğlu -** *Oğuz rayon pensiya fondunun əməkdaşı.*

**Kərimov Afər Yusif oğlu -** *şəxsi fermer təsərrüfatının rəhbəri, vətənpərvər iş adamı.*

**Orucov Mübariz Əhməd oğlu -** *Oğuz rayon pensiya fondunun əməkdaşı.*

**Kərimova Tahirə Yusif qızı -** *Balakən rayon Kortala kənd məktəbinin direktoru.*

**Yunisov Yunis Mirismayıl oğlu-** Polis mayoru, Zaqatala rayon PŞ-də baş əməliyyat müvəkkili.

**Məmməd bəy Nəsib bəy oğlu-** Çar Rusiyası dövründə mülkiyyət sahibi olmuş bəy.

**Hüseynov Abdulla Şöyüb oğlu –** *iş adamı, vətənpərvər xeyriyyəçi.*

**Hüseynov Eyvaz Şöyüb oğlu –** *Oğuz şəhər məktəbində müəllim.*

**Hacı Şeyx Yusif Padar Hacı Əli baba oğlu** – *XIX əsrdə yaşamış və bir çox övliyaların kamal dərəcəsinə çatmasında böyük rolu olmuş Şeyx* (müqəddəs məzarı Tüntül kəndindədir)

**Müəllifdən:** *Etiraf edirəm ki, bü siyahıdakılar Padar kəndinin bütün ziyalılarını və görkəmli şəxsiyyətlərini əhatə etmir; bunlar sadəcə mənim imkanım daxilində toplaya bildiyim padarlıların adlarıdır...*



# Падар кяндинин шаирляри

## Müəllim haqqında

*Nurlu şüa kimi, gümüş şel kimi,*
*Fikrindən yoluma gur işıq düşüb.*
*O qədər başına fırlanmışam ki,*
*Sənin saçların da dolaşıq düşüb.*

*Saçların düşərdi bəzən üzünə,*
*Sənin ki, qapqara saçların vardı.*
*Düzü niyə danım, sənin saçına*
*O qədər baxdıq ki, saçın ağardı.*

*Ürəyin sevinclə vurar, çırpınar,*
*Kəlmələr üstündə itər dincliyin.*
*Sənin ürəyində körpəliyim var,*
*Mənim ürəyimdə sənin gəncliyin.*

## Torağaylar danışır

*Vəsiyyət eyləyirdi*
*Balasına Torağay*
*Danışırdı ömrünü*
*Yana-yana Torağay.*

*Balası çox soruşdu:*
*Mənə qoyub getdiyin*
*Sərvət hanı, var hanı,*
*Söz incitdi ananı.*

*Susdu ana Torağay,*
*Əsdi dili, dodağı.*
*Əyilib asta-asta*
*Dimdiklədi torpağı...*

**Sabir Həkim**

## ABDULLA PADARLI

### Bəyənməz

Ay ağalar, bir zəmanə gəlibdir,
Həmtay olan heç həmtayı bəyənməz.
Qara qızlar sürmə çəkib gözünə,
Gözəllikdə Züleyxayı bəyənməz.

Müqəddəm bəylərə verirdi qəlyan,
Xəlayiqi quduz kimi dalayan,
Ayaq üstə sini dibi yalayan,
Qohum-qarşad, əmi-dayı bəyənməz.

Namərdlərin dolu olur, torbası,
Deyir: «Mənəm tacirlərin zorbası»,
Ya bunların artıq düşüb arpası,
Düldül kimi badpayı bəyənməz.

Kor bəyənməz mütləq gözü görəni,
Kar da qulaqları darı dələni,
Hampalar inçidir çörək verəni,
İt qudurub, qaysavayı bəyənməz.

Yəqin gündüz gəzə bilməz yarasan,
Gecələr də deyər: «Mənimdir dövran»,
Çip-çip edər alacəhrə, bitdiyan.
Oxumaqda torağayı bəyənməz.

# Deyişmə

## Abdulla Padarlı ilə Şah Səmədin deyişməsi

**Abdulla:**

Cıxıbdı əlimiz ata- anadan,
Mənim də dərdimə, ay yanan qardaş.
Bu dərd sənin deyil, mənim dərdimdi,
Bu dərdimə həmdəm, ay olan qardaş.

**Şah Səməd:**

Səbr elə, qardaşım, qəza işidi,
Demə bu sözləri, əl-aman, qardaş!
O can sənin deyil, mənim canımdı,
İki təndə varıq bircə can, qardaş!

**Abdulla:**

Gecə-gündüz duam budur xudadan,
Yetirsin mətləbə bizi yaradan.
Heç kəsin olmasın əzəl binadan,
Oxu dəyib daşa bir yanan, qardaş!

**Şah Səməd:**

Gecə-gündüz dilə həqdən hacatı,
Mövlam bizə versin bundan nicatı.
Tanrı başadək eyləsin həyatı,
Yetirək mətləbə havadan, qardaş!

**Abdulla:**

Gəlibən düşdük qərib ellərə,
Çox yaşlar axıtdıq biz bu çöllərə.

Qəlbi sınıq baxdıq daim yollara,
Zülmün ocağında qıvrılan qardaş!

**Şah Səməd:**

Gəl ağlama, Abdulla, bir də hərgiz,
Allahın əmrinə olginən düm-düz,
Axır ki, mətləbə yetəcəyik biz,
Sən də fikir çəkmə heç yandan qardaş!

**Abdulla:**

Çevirib üzünü sən ol dərgaha,
Gəl düşmə o qədər fəryada, aha,
Sidqini bağla bir qadir Allaha,
Yan tutma sidqini Xudadan, qardaş!

**Şah Səməd:**

Düşüb eşqə könlüm, gülmədi üzüm,
Aləmə car oldu mənim bu sözüm,
Ceyhunu doldurdu yaş ilə gözüm,
Aşıb-daşıb keçdi dəryadan, qardaş!

**Abdulla:**

Aşıq olan tökər gözdən yaşını,
Yar yolunda qoyar canü başını
Fikir edər özünə həqqin işini,
Kim qaçar, qurtular qəzadan,

# QIFILBƏND

## Şıx Səmədin[1] Abdulla Padarlı ilə deyişməsi

**Şıx Səməd:**

Səndən xəbər alım, Abdulla qardaş,
Hansı yerin bulaqları yeddidi?
Hansı şair, hansı yeri vəsf edib,
Kəlməsi min, varaqları yeddidi?

**Abdulla:**

Al cavabın deyim Şıx Səməd qardaş,
O üzdür ki, bulaqları yeddidi.[2]
Əbu Nəvvas Məkkə şəhrin vəsf edib,
Kəlməsi min, varaqları yeddidi.

**Şıx Səməd:**

Nə heyvandır əsil-nəsil yetirməz?
Nə ağacdır bəhər-meyvə gətirməz?
Hansı adam yaxşılığı itirməz,
Hansı yerin ocaqları yeddidi?

**Abdulla:**

O qatırdı-əsil-nəsil yetirməz,
O söyüddür-bəhər-meyvə gətirməz,
Əsil adam yaxşılığı itirməz,
O Kəşmirdi, ocaqları yeddidir.

---

[1] Şah Səmədin ikinci təxəllüsü
[2] İki qulaq, iki göz, iki burun, bir ağız

**Şıx Səməd:**

O nədir ki, payız olur, yaz olur?
O nədir ki, orda işvə-naz olur?
O nədir ki, min də olsa az olur?
O kimdir ki, otaqları yeddidi?

**Abdulla:**

Göbələkdi-payız olur, yaz olur,
Eşq bağında işvə, qəmzə, naz olur,
O ömürdür-min il olsa az olur,
O İmrandı-otaqları yeddidi.

**Şıx Səməd:**

O nədir ki, doymaq olmaz buyundan;
O nədir ki, çatı olmaz muyundan?
Nə bulaqdır-içmək olmaz suyundan,
Nə millətdir daraqları yeddidi?

**Abdulla:**

O övladdır-doymaq olmaz buyundan,
O ceyrandı-çatı olmaz muyundan,
O gözdür ki, içmək olmaz suyundan
Taciklərdir daraqları yeddidi.

## Bayatılar

Köynəyim dardı mənim,
İşim ahu-zardı mənim,
Abudllah yalan deməz:
Kəbəm Padardı mənim.

Kür üstundə kənd olu,
Dörd tərəfi bənd olu,
Yarın acı sözləri
Abdullaha qənd olu.

Qaranquş yuva bağlar,
Yurd salar, yuva bağlar,
Abdullah ah çəkmədən
Axırda hava bağlar.

Abdullah, apar indi,
Düşmanlar tapar indi,
Sən öldün, mən ölmədim,
Qiyamət qopar indi.

Abdullah, məzə dərdə,
Can gərək dözə dərdə.
Həkim ona deyrəm,
Dərman görkəzə dərdə.

Bu dağları qarısın,
El-obaya yarısın,
Abdullah, yaxşı dostu,
Nə ölsün, nə qarısın.

## Qəzəl

Bəşarət, səd bəşarət ki, qədəm basıb canan gəlmiş,
Dedilər Gəncədən şəhri-Şəkiyə can alan gəlmiş.

Şitabü iztirab etmə, könül, səbr eylə, səbr eylə,
Səməndər üstünə guya ki, bir bədi-xəzan gəlmiş.

Eşitdim ki, gəlib yarım, həzaran şadman oldum,
Kaman əbrü, gül əndamı cahana binişan gəlmiş.

Nə misli cümlə aləmdə, nə şəbhi məhvəşan içrə,
Mücərrəb bəhrinə, billah, məhəki-imtahan gəlmiş,

Əsər badi-səba, oynar üzündə küfrtər zülfü,
Ey Abdulla, dönüb Mehdi ona sahibzaman gəlmiş.

## Xoş gəlmisən

Ey həbibim, ey şahənşahi-cahan xoş gəlmisən,
Zibdeyi-həm zicəmali-arifan, xoş gəlmisən,
Mədəni-cüdü kərəm, şirinzəban, xoş gəlmisən,
Rövzeyi-canım mənim, ruhi-rəvan, xoş gəlmisən,
Alişan, ənbərfəşan, sahibzaman, xoş gəlmisən.

Nə əcəb lütf eyləyib sən bizləri yad eylədin,
Mərhəmi-dil, xatiri-qəmnağimi şad eylədin,
Bu şikəstə könlümü həm qəmdən azad eylədin,
Bu həqir biçarənin halına imdad eylədin,
Nüktədan, arami-can, ey nocavan, xoş gəlmisən.

Gör necə birəhmdir, zülmü mənə az eyləməz,
Ol səbəbdən mürği-dil bu təndə pərvaz eyləməz,
Çağırıb könlüm evin bir kərrə avaz eyləməz,
Bu qədər məşuq öz aşiqinə naz eyləməz,
Dilsitan, sərvi-rəvan, əbrukaman, xoş gəlmisən.

Neçə müddət mən sənin təşrifinə heyran idim,
Çox qəmnak, həm də ki, sərkəşteyi-dövran idim,
Ruzü şəb dilimdəki «dilbər» deyib giriyan idim,
Bəsteyi-dami-məhəbbət, xəsteyi - fərman idim,
Əznişan, dürri-giran, yəni canan, xoş gəlmisən.

Mən əgər xurşidü məhtabanə eylərsəm nəzər,
Aşiqim, onda deməzlərmi mənə, ey müzdəcər,
Bundan özgə varmıdır bunda məgər şəmsü qəmər,
Xidmətindədir bu Abdullah sənin şamü səhər,
Can sənə qurbandır, ey can alan, xoş gəlmisən.

## Ələ düşməz

Dilbər, nə deyim, sən kimi canan ələ düşməz,
Ləlin kimi heç ləli-Bədəxşan ələ düşməz,
Zülfün kimi heç zülfi-pərişan ələ düşməz,
Hər vəqt belə həkimü loğman ələ düşməz,
Biçarələrin dərdinə dərman ələ düşməz.

Mən aşiq idim, şövqi anın var idi məndə,
Öz aşiqinin kərdənini saldı kəməndə,
Kəşmirü Misir, Hindü Buxaravü Xütəndə
Musa şəhəri, Çin ilə Maçinü Yəməndə,
Gərçi gəzələr Rum, Ərəbistan, ələ düşməz!

Əlqissə ki, yüz kafər ola, yüz də müsəlman,
Tövrat ilə İncilü Zəbur, ayəti-Quran,
Şamü Hələbü Tiflis ilə cümlə Trabzan,
Dərdbəndü Quba, Bakiyü Tatar ilə Zəncan,
Yüz seyr oluna külli-Dağıstan, ələ düşməz.

Bir eylə səfər ləşkəri-müjgan ələminə,
Gör neçə çöküb hökmü anın ruyi-zəminə,
Təbrizi Şəki, Gənçəvü Babil şəhərinə,
İran ilə Turan, Əraq, Məkkə, Mədinə,
Bunlarda belə sən kimi bir can ələ düşməz!

Yüz zahid ola zirəkü həm layiqi-minbər,
Çeşmində nə əhyan, nə əzhan müsəvvər,
Yüz seyr eləsən gərçi bu dünyanı sərasər,
Əz ruzi-əzəl sən kimi yox saqiyi-kövsər,
Ta ruz edəsən, mən kimi ətşan ələ düşməz.

Cün ərzü səma, şeş çəhətü car ənasir,
La mislə……………………………
..........................................................[1]
Abdullah ilə qolboyun ol batini zahir,
Qurbanın olum, heç belə dövran ələ düşməz.

[1] Şeirin iki sətri oxunmur

## Ey qaşı kaman

Ey qaşı kaman, ağzı sədəf, kakili ilan,
Ey şahi-ədalət, dişi dür, sərvəri-xuban,
Ey gərdəni mina, rəvişü sinəsi meydan,
Ey canım alan, afəti-bəxşayişi-rəhman,
Ey xalı siyəh, müjəsi ox, hürüvü qılman.

Ey şuxi-çəfakarü biinsafü mürüvvət,
Bir yadına sal öz qulunu, eylə ətüffət,
Bir gəl yanıma, eyləməyək qəti-məhəbbət,
Əğyar ilə, Allahı sevər, etmə məmüvvət,
Öldürmə məni, qamətinə, hüsnünə heyran.

Hər kim üzünə etsə nəzər, yoxdu qərari,
Lalə ruxuna cün baxıban soldu üzari,
Əğyarə uyub, mənim ilən gəzmə kənari,
Bir üzünü göstər, danışaq sən səni tari,
Xəlq eyləməyib sən kimisin xaliqi-yəzdan.

Sən qönçeyi-gülsən, mənəm ol bülbülü-şeyda,
Əğyarə dəxi sirrimi gəl etmə hüveyda,
Zülfün görübən oldu xəcil ol şəbi-yelda,
Güya ki, şirin danışığın nitqi - Məsiha,
Bir görmək ilə hasil olur zövqi-firavan.

Ey Xosrovi-xuban, kərəm kani şəhənşah,
Abdullahı dur eyləmə, ey sahibi Çəmçah,
Ta ki, görübən olmuya şad düşməni-bədxah,
Vəslindən anı ayırıban, eyləmə gümrah,
Nola ki, olaq biz də sənə bir daha mehman.

## Cığalı Müxəmməs

Ey şux, mənim yari-vəfadarımsan sən,
Dil gülşəni, həm qönçeyi-gülzarımsan sən,
Bu işvədə çün yari-dilazarımsan sən,
Bir zalımi-birəhm, cəfakarımsan sən.
Ey afəti-dövran,
Ey Xosrovi-xuban,
Canım sənə qurban,
Ey dərdimə dərman!
Bişübhə, mənim eşqdə dildarımsan sən,

Hər baxışı bir ahu, mənim canım alıbdır,
Şəfqət nəzəri könülümü sövdayə salıbdır,
Heyva kimi hicr içrə bu rəngim saralıbdır,
Qəm çəkə-çəkə daxi gözüm yolda qalıbdır
Ey talei-bərbad,
Mən əmrinə münqad,
Fəryad ki, fəryad
Eylə məni azad!
Ey qaşı hilal, yari-kamandarımsan sən.

Bəsdir bu qədər cövrü çəfalar, sənə qurban,
Seyr eylə, sürüb zövqü səfalar, sənə qurban,
Mən görməmişəm səndə vəfalar, sənə qurban,
Gəl, dərdimə qıl bircə şəfalar, sənə qurban,
Güldür məni hərdəm,
Et dərdimə məlhəm,
Ey sirrimə məhrəm,
Sultani-mükərrəm,
Nazik bədəni yengi yetən narımsan sən!

Canım üzülüb ta belə dövranın əlində,
Ey çərxi-fələk, qalmışam hicranın əlində,
Ömrüm tükənib bir belə cananın əlində,
Bir zalımi-bidadü can alanın əlində,
Ey yasəmənü gül,
Gəl, eylə təhəmmül,
Manəndeyi-bülbül,
Zülfün ucu sünbül,
Gözüm açıban görməyə didarımsan sən.

Zülfün görübən nərgisü sünbül xəcil oldu,
Lalərüxünə baxdı o dəm gül, xəcil oldu,
Bu narın olan sövtünə bülbül xəcil oldu,
Şad olmayan hicrinə bu dil xəcil oldu,
Ey mahirü kamil,
Eyhamə müqabil,
Qılma məni zail,
Ol sən buna qail,
Abdüllaham, ol valehi-qəmxarımsan sən.

## Güldü, gül

Ey gözəl, əvvəl ki, əsli-fəsli-babın güldü, gül,
Ol ənasir xak, badın, atəş, abın güldü, gül,
Ruhi-pakın can, həm cənnət, məabın güldü, gül
Pərdə güldür, çöhrə gül, sətri-niqabın güldü, gül,
Gül üzündə sünbüli-pürpiçü tabın güldü, gül,
Qəmzə güldü, şivə gül, nazü itabın güldü, gül,
Nitq güldür, sövt gül, həm iztirabın güldü, gül.

Gül zənəxdan, güldü müjgan, çeşmi-xumarın da gül,
Qaş güldür, diş güldür, rəngi-ruxsarın da gül,
Həm ləbin gül, ğəbğəbin gül, zövi ənvarın da gül,
Cəbhə güldür, sinə gül, qoynunda gülnarın da gül.
Türrə gül, tel gül, qara keysuyi-zərtarın da gül,
Dəst gül, pa gül, bədən gül, buyi-nabın güldü, gül.

Ey gülüm, sən necə gülsən, min sana heyran gül,
Qədd gül, boy gül, kəmər gül, naf gül, fincan gül,
Həm dəhan gül, həm zəban gül, güş gül, püstan gül,
Xal güldür, hal gül, xislət də gül, xəndan gül,
Dəst gül, said də gül, bazu da gül, kətfan gül,
Dab güldür, ləb güldür, kəb gül, kəban gül,
Badə gül, meyxanə gül, saqi, şərabın güldü, gül.

Muyi-cismin eyni gül, başındakı sevda da gül,
Həlq güldür, saqi gül, zanu da gül, ziba da gül,
Dəst güldür, muşt güldür, əngüşt gül, rəna da gül,
Ətr güldür, mətn güldür, ləfz gül, məna da gül,
Tuti güldür, ləhcə gül, yaqut gül, həmra da gül,
Şəhd-qənd gül, ərğəvan gül, zir gül, bala da gül,
Xeyli nazik bu müəmmayi-kitabın güldü, gül.

Müxtəsər, gülsən qamu, başın gül, ayağın da gül,
Həm libasın, həm vücudun gül, solun-sağın da gül,
Saqi gül, sağər də gül, səhba gül, əyağın da gül,
Gülşənin gül, ta gülüstan-bustan bağın da gül,
Şeş cahatın, ey sənəm, hətta ki, torpağın da gül,
Gərdişin gül, hər işin gül, görməli çağın da gül,
Sən də bülbülsən, ey Abdulla, cavabın güldü, gül.

## Həcvi - məlih

Ola bərbad, görüm, boylə yava dövrani,
Bəlkə bundan da yaman ola onun payani.

Bundan əqdəm görünüb nadir olurdu şüəra,
Camivü Sədivü Firdovsivü həm Xaqani.

Hafizü Xacü, Fizuli və Nizami Gəncə,
Xosrov, Molla Nəvai, Həsən İsfəhani.

Rəhmət olsun bunların cümləsinə ta məhşər
Ki, qoyublar yadigar hər biri bir nişani.

İmdi bu çərxi-sitəmkar bu Cücük kəndində
Sadığı şair edib, rast qılıb meydani.

Sadına möcəmeyi kəsr ilən zəmm oluna,
Bir xəbər alasınız onda nədir dərmani.

Bir də Mahmud deyilən, Şəkilidə[1] çıxmışdır,
Bircə əksikdir anın arpa ilə səmanı.

İki  qırxın yerinə başına bir cim qoysaq,
O zaman şənbə günü rayic olur fərmani.

Molla Qurban törəyib bir də Məlikballıda,[2]
Götürürmüş, dedilər, o da qılınc, qalxani.

---

[1] Ağdaş və Göyçayda kənd adı
[2] XIX əsrdə Ucarın Məlikball kəndində yaşamış şair Qurbana işarə edir.

Yüzünü əlif ilə altmışa təbdil eləsən,
Düşə üştür dalına bank ura heyvani,

Bir də Ağdaşda bir qəryədə var Molla Rəsul,
Laf edib o da calırmış, dedilər, zurnani.

Ayağın başına qoysaq, ordan xəzəf etsək,
Kim döyər kim döşünə, gəzdirə bu heyvani.

Bir də Xaçmazlı[1] Məhəmmədbəy ağa var, koxa,
Yolla, gəlsin yanıma, bir görüm ol mövlani.

Basıban bağlayır imiş o da beş bağlamadan,
Danışırmış, dedilər, laf, kəzəf, hədyani.

Der imiş *«bu sözümü molla filankəs bilməz»,*
Özünə cıxır imiş Gəncə, Şəki, Şirvani.

Gün keçir, bir də nə lazım,danışaq tul kəlam,
Bəqt vardır, sabaha qalsın onun divani.

Biri var Molla Əli Şəmsavada vəznşünas,
Mən eşitdim ki, o da şer deyir pünhani.

Xeyli babat danışır, şeşrək üçün verdim ona,
Körpükəndi, Qaxayı, Alpovutu, Qazyani,

Bir də molla Qoşaquvaqda törəyib,
Mərifətdən dəm urub, qurdalayır cox ani.

---

[1] Oğuz rayonunda kənd adı

İsmi-camiddi, gərək qəlb ola lami dü sədə,
Mirzəxan bayeidir  ləzgi Qasım alani.

Daxi qoydu yerə şairliyi bu Abdullah,
Bir də minbəd danışmaz süxəni-övzani.

## İstifadə olunmuş ədəbiyyat

1. V. Məmmədəliyev – "Quran" tərcümə.
2. Rəcəb Dıkıcı – "Böyük övliyalar".
3. Məşədixanım Nemət – "AZərbaycanda pirlər".
4. Nazim Tapdıqoğlu (Vəlişov) –"Zərdab ensklopediyası".
5. Gülxani Pənah – "Oğuz şəhidləri, itkinləri".
6. Məsim Kərim – "120 yaşlı məktəb".
7. Mövlana Cəlaləddin Rumi– "Eşq pərvanəsi".

# Мцяллифдян

Бу китабын чапында мяня мадди вя мяняви дястяк олмуш Эцлмяммядов мухтар Яшряф оьлуна, Щцсейнов Абдулла Шюйцб оьлуна, Бяширов Лцтвийар Нийази оьлуна вя диэяр вятянпярвяр *padarlыlara,* щямчинин, “Зярдаби ЛТД” ММЪ-нин рящбярлийиня вя коллективиня юз дярин тяшяккцрцмц билдирирям.

# Kitabın içindəkilər

REDAKTORDAN ....................................................3
PADAR KƏNDİ ....................................................7
PADAR KƏNDİNİN TOPONİMLƏRİ....................10
HACI MƏMMƏDƏLİ ARXI ...............................10
SEYİD ƏMBƏRCƏSİ ..........................................10
İSLAM YERİ ........................................................11
KAZIM ÖLƏN......................................................11
BAZAR YERİ .......................................................12
DAŞ ÜZ...............................................................12
AĞ TALA ............................................................13
QARALI TALASI.................................................13
SİLİKOV SAHƏSİ ...............................................13
ATA BAĞI...........................................................13
MƏMMƏDDURSUN SAZI ..................................14
İSGƏNDƏR ÇÖKƏKLƏRİ.....................................14
QARAQORALIQ..................................................14
XƏLİFƏ YERİ .....................................................14
QUMLUQ ÇAYI...................................................15
PİR QARAĞAC....................................................15
QƏRİBLƏR QƏBİRİSTANLIĞI ..........................15
ÇƏLƏBİ BULAĞI.................................................16
NEHRƏ BULAĞI..................................................16
SONA BULAĞI....................................................16
MƏMMƏDDURSUN BULAĞI.............................16
QALA YERİ .........................................................17
AĞ BULAQ ..........................................................18
ÇIR-ÇIR BULAĞI .................................................18
KİRƏC KÖRPÜ....................................................18
ATASI KÖRPÜSÜ ...............................................18
FATMA KÖRPÜSÜ ..............................................19

SARISU ÇAYI........................................................................19

**PADAR KƏNDİNİN MÜQƏDDƏS YERLƏRİ**
ŞEYX YUSİF ƏFƏNDİ.........................................................23
HACI ƏBDÜSSƏLAM ƏFƏNDİ ...........................................32
MOLLA MİRMƏHƏMMƏD ƏFƏNDİ.................................37
HACI ABDULLA PADARLI...............................................39

**SOYQRIM**
ERMƏNİ VƏHŞİLİYİNİN PADAR
KƏNDİNDƏKİ İZLƏRİ........................................................46
PADAR KƏNDİNİN ŞƏHİDLƏRİ........................................48

**ÜRƏKLƏRDƏ YAŞAYANLAR**
QƏRİB YÜZBAŞI ...............................................................54
SƏMƏD VURĞUN PADARDA............................................66
GÜLMƏMMƏD KİŞİ.............................................................68
SABİR HƏKİM.....................................................................71
LÜTVİYAR HƏKİM............................................................74
PADAR KƏNDİNİN REPRESSİYA
QURBANLARI.....................................................................76
PADAR KƏND MƏKTƏBİ..................................................77
PADAR KƏNDİNDƏ KOLXOZ DÖVRÜ ............................79
PADAR İCRA NÜMAYƏNDƏLİYİ.....................................80
PADAR BƏLƏDİYYƏSİ.....................................................81
1941-1945-Cİ İL MÜHARİBƏSİNDƏ PADAR
KƏNDİNDƏN İŞTİRAK ETMİŞ
VETERANLARIN SİYAHISI...............................................82
ƏFQANISTAN MÜHARİBƏSİ VETERANLARININ
S İ YA H I S I.........................................................................83
PADAR KƏNDİNİN BƏZİ GÖRKƏMLİ
ŞƏXSİYYƏTLƏRİ VƏ TANINMIŞ ZİYALILARI.......84
Müəllim haqqında ..............................................................90

Torağaylar danışır ........................................................90
ABDULLA PADARLI, Bəyənməz.................................91
Deyişmə
Abdulla Padarlı ilə Şah Səmədin deyişməsi.....................92
QIFILBƏND
Şıx Səmədin Abdulla Padarlı ilə deyişməsi .....................94
Bayatılar .........................................................................96
Qəzəl ...............................................................................97
Xoş gəlmisən ..................................................................97
Ələ düşməz.......................................................................98
Ey qaşı kaman ...............................................................100
Cığalı Müxəmməs .........................................................101
Güldü, gül.......................................................................102
Həcvi - məlih..................................................................104
İstifadə olunmuş ədəbiyyat ............................................107

**PAŞA YAQUB**

# PADAR KƏNDİNİN ENSİKLOPEDİYASI


**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Mətanət Əliqızı*

Çapa imzalanmışdır:
Formatı 84x108 1/16. Həcmi 7 ç.v.
Sifariş №240. Tiraj 200

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
Kitabın içindəki məhumatlara mətbəə cavabdehlik daşımır
İş ☎ (012) 514-73-73